# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

24 fevral 2026-cı il, çərşənbə axşamı

№ 035 (7102)

Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Struktur islahatlarının yeni mərhələsi



Bax səh. 2



**İlham Əliyev:**

**Hər birimizin ürəyində qisas hissi var, hər birimiz o qanlı tarixə qayıdanda, o dəhşətli video və fotosənədlərə baxanda bizi qəzəb boğur, 30 il yox, 300 il keçsə də, bu qəzəb bizi buraxmayacaq. Bu təbiidir, biz insanıq, ancaq eyni zamanda, biz böyük xalqın nümayəndələriyik**

Bax səh. 4

# Cənubi Qafqazda yeni geosiyasi xəritə

Bax səh. 3

## “Şəhərsalma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasəti”

Fevralın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurası və YAP Nəsimi rayon təşkilatının birgə təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində “Şəhərsalma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasəti” mövzusunda tədbir keçirilib.

Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) inzibati binasında keçirilən tədbirdə əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov Prezident İlham Əliyev tərəfindən 2026-cı ilin ölkəmizdə “Şəhərsalma və Memarlıq İli” elan edilməsi qərarının əhəmiyyətindən danışıb. O, bu təşəbbüsün şəhərsalma siyasətində keyfiyyətli dəyişikliklərə və müasir memarlığın inkişafına töhfə verəcəyini vurğulayıb. Qeyd edib ki, cari il ərzində reallaşdırılacaq layihələr həm sosial infrastrukturun, həm də estetik mühitin daha da təkmilləşdirilməsinə xidmət edəcək. Eyni zamanda, təşkilatın üzvləri şəhərsalma və memarlıq sahəsində keçirilən...

Bax səh. 4



## Milli iradə və yeni reallıqlar qarşısında “isterik tutmalar”

Bax səh. 3

## Türk dövlətləri yeni iqtisadi hədəflər müəyyənləşdirir

Bax səh. 5

## İsveçrə nə istəyir?

Bax səh. 5

## Ağ Evdən verilən mesajlar

Bax səh. 7

## Azərbaycan qlobal miqyasda nüfuzlu dövlət və etibarlı tərəfdaşdır

Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının “Gənclərin siyasət və analitika mərkəzi” siyasi, strateji, ictimai və geosiyasi proseslərin təhlili layihəsinin açılış tədbiri keçirilib.

Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli və YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov çıxış edərək layihənin əhəmiyyəti, əsas ideya və gələcək fəaliyyəti ilə bağlı məlumat veriblər. Qeyd olunub ki, layihənin əsas məqsədi gənclərin strateji düşüncə və analitik bacarıqlarının inkişaf etdirilməsi, regional və beynəlxalq prosesləri düzgün qiymətləndirmə qabiliyyətlərinin gücləndirilməsidir.

Sonra Trend Beynəlxalq İnformasiya Agentliyinin Baş direktorunun müavini, “Baku Network” Ekspert Platformasının direktoru, Əməkdar jurnalist Elçin Alıoğlu “Müasir geosiyasi proseslər və Azərbaycan” mövzusunda təlim keçib.

Bildirilib ki, müasir dövrdə beynəlxalq münasibətlər sistemi dərin transformasiya mərhələsindən keçib. Qeyd olunub ki, qlobal güc balansının dəyişməsi, regional münaqişələr, enerji təhlükəsizliyi...

Bax səh. 4



## Yaxın Şərq yeni müharibə astanasında

Bax səh. 7



## Rusiya-Ukrayna müharibəsinin 4-cü ili...

Bax səh. 6

# Birgə layihələr həm ölkələrimiz, həm də region üçün geniş imkanlar açacaq

## Prezident İlham Əliyev İranın yol və şəhərsalma nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri Fərzanə Sadiqin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Fərzanə Sadiqin ötən il ölkəmizə səfəri və Prezident İlham Əliyevlə görüşü məmnunluqla xatırlandı.

Dövlətimizin başçısı bir müddət əvvəl İran Prezidenti Məsud Pezeşkianla telefon danışığını xatırladaraq, həmin telefon söhbəti əsnasında dost ölkələr kimi Azərbaycanla İran arasında qarşılıqlı əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu dedi.

İkitərəfli gündəliyin genişlənməsini məmnunluqla qeyd edən Prezident İlham Əliyev Azərbaycanla İranın birgə icra etdiyi layihələrin həm ölkələrimiz, həm də region üçün geniş imkanlar açacağını vurğuladı. Dövlətimizin başçısı Fərzanə Sadiqin ölkəmizə səfəri çərçivəsində bütün bu məsələlərin müzakirə ediləcəyinə və səfərin yaxşı nəticələrin olacağına ümidvarlığını bildirdi.

Azərbaycana yenidən gəlməsindən məmnunluğunu ifadə edən Fərzanə Sadiq qəbula görə dövlətimizin başçısına minnətdarlıq etdi.

O, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı və vurğuladı ki, İran Prezidenti Azərbaycanla münasibətlərə xüsusi əhəmiyyət verir.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Məsud Pezeşkiana çatdırmağı xahiş etdi.

Fərzanə Sadiq ölkələrimiz arasında tarixi, dini və mədəni əlaqələrin mövcud olduğunu vurğuladı.

Söhbət zamanı Bakıda keçiriləcək "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadiyyat, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyası"nın 17-ci iclasının əhəmiyyətinə toxunuldu, Şimal-Cənub nəqliyyat dəhlizi, Araz çayı üzərində Ağbənd və Kələlə məntəqələrini birləşdirən avtomobil körpüsünün inşası və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edildi.

# Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2026-cı ildə iyirminci əsr Azərbaycan ədəbiyyatının qüdrətli simalarından biri, Xalq şairi, tanınmış dramaturq və ictimai xadim, SSRİ Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Səməd Vurğunun (Səməd Yusif oğlu Vəkilovun) 120 illiyi tamam olur.



Səməd Vurğun Azərbaycanın ədəbi fikir salnaməsində yeni parlaq mərhələ başladan görkəmli sənətkardır. Çoxşaxəli fəaliyyətinin qayəsində azərbaycançılıq amalı dayanan şair nəğməkarı olduğu Odlar diyarını alovlu məhəbbətlə tərənnüm etmişdir. Onun dillər əzbərinə çevrilmiş "Azərbaycan" şeiri hər bir azərbaycanlının ürəyindəki Vətən sevgisinin poetik ifadəsidir. Böyük söz ustası ana dilinin saflığı uğrunda dönmədən mübarizə aparmış, xalq yaradıcılığının tükənməz xəzinəsindən bəhrələnməklə bu dilin bütün məna gözəlliklərini özündə əks etdirən, dərin bəşəri-ictimai məzmuna malik qiymətli əsərlər ərsəyə gətirmişdir. Səməd Vurğunun milli poeziyanı yüksəklərə qaldıran romantik və fəlsəfi məzmunlu bənzərsiz lirikası Azərbaycan ədəbiyyatının qızıl fonduna daxildir. Keçmişə ehtiram və gələcəyə inam aşılayan Vurğun dramaturgiyası Azərbaycanın teatr sənəti tarixində xüsusi səhifə təşkil edir. Səməd Vurğunun novator keyfiyyətlərlə zəngin bədii irsi bir məktəb kimi müasir Azərbaycan poeziyasına güclü təsir göstərmişdir və bu gün də gənc nəslin milli-mənəvi dəyərlərə sədaqət ruhunda yetişməsində əhəmiyyətli rol oynayır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan görkəmli şair Səməd Vurğunun 120 illiyinin keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və aidiyyəti qurumlarla birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Xalq şairi Səməd Vurğunun 120 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 23 fevral 2026-cı il**

# Struktur islahatlarının yeni mərhələsi

Dünyaya nümunəvi inkişaf modeli təqdim edən Azərbaycan özünün yaxın və uzaq hədəflərini konseptual əsaslarla müəyyənləşdirir və hədəflərə çatmaq üçün ardıcıl islahatlar həyata keçirir. Bu zaman bir sıra fundamental amillər, o cümlədən ölkənin potensialı, mövcud reallıqları, yeni qlobal çağırışlar nəzərə alınır və uğurlu koordinasiya təmin edilir.

O cümlədən institusional dəyişikliklərin həyata keçirilməsi, idarəetmə islahatları da Azərbaycanın müasirləşmə strategiyasının prioritet istiqamətlərindən birini təşkil edir. Prezident İlham Əliyevin ötən ilin noyabr ayında imzaladığı Fərmanla "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi"nin təsdiqlənməsi dövlət və ictimai münasibətlərdə olduqca mühüm hadisə idi. Bu siyasətin davamı olaraq dövlətimizin başçısı 20 fevral 2026-cı il tarixində "Bir sıra dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Fərman imzalayıb. Prezident İlham Əliyevin idarəetmə islahatları çərçivəsində imzaladığı digər iki Fərman isə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" və "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" publik hüquqi şəxslərin yenidən təşkili, eləcə də Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" və "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxslərin yenidən təşkili haqqındadır.

## İdarəetmənin optimallaşdırılması, mobilliyin və funksionallığın təmin edilməsi

Dövlət başçısının bu günlərdə imzaladığı mühüm sənədlər o reallığı ortaya qoyur ki, idarəetmə kimi həssas sahə də islahatlardan kənarda qalmamalıdır və qalmır da. İnkişafın ardıcıllığının təmin olunması və miqyasının daha da genişləndilməsi üçün idarəetmə çevik və optimal olmalıdır. Bəhs olunan Fərmanların əsas məqsədi müvafiq sahələrdə idarəetməni optimallaşdırmaqdan ibarətdir. İdarəetmənin optimallaşdırılması bir sıra mühüm amillərlə şərtlənir. Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi ondan ibarətdir ki, kadrların peşəkarlığı və mənəvi təmizliyi idarəetmənin səmərəliliyinin artırılması və vətəndaş məmnunluğunun təmin edilməsi üçün çox mühüm şərtlərdir. Ölkəmizdə idarəetmənin daha da optimallaşdırılması məqsədilə bu istiqamətdə ardıcıl siyasət həyata keçirilir.

İdarəetmənin daha da optimallaşdırılmasının və səmərəliliyin artırılmasının digər mühüm şərti isə institusional çərçivələrin təkmilləşdirilməsi və müasirləşdirilməsidir.Yeni zamanında hansısa bir struktur yaradılıbsa, onun mövcudluğuna bir doğma kimi yanaşmaq doğru deyil. Zaman ötür, yeni reallıqlar yaranır və bu reallıqlara uyğun olaraq fərqli çağırışlar meydana çıxır. Təbii ki, buna uyğun qaydada strukturun çərçivələri də yenilənməlidir. İndiki dövrün tələbi belədir ki, ayrı-ayrı qurumların, necə deyərlər, şişməsinin qarşısı alınmalıdır. Strukturlar az işçi qüvvəsi ilə daha böyük işlərin həyata keçirilməsinə hədəflənməlidirlər. Mobillik, funksionallıq mütləq qaydada təmin olunmalı, ayrı-ayrı hallarda qurumların bir-birini təkrarlamasının qarşısı alınmalıdır. Postmüharibə dövründə ölkəmizin qarşısında böyük məqsədlər dayanır. Vəsaitlər şişirdilmiş, bir-birini təkrarlayan, dəyər yaratmayan strukturların maliyyələşdirilməsinə deyil, ümummilli məqsədlərə yönəldilməlidir.

Bəhs olunan fərmanların əhatə dairəsi kifayət qədər genişdir. Dövlət başçısının imzaladığı sənədlərlə müvafiq baza əsasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi", "Geodeziya və Kartoqrafiya Agentliyi", Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi", "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Bitkiçilik Elmləri İnstitutu"nun və "Heyvandarlıq, Balıqçılıq və Baytarlıq Elmləri İnstitutu", Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Su və Meliorasiya üzrə Layihələndirmə və Elmi Tədqiqat İnstitutu" kimi büdcə təşkilatlarının yaradılması nəzərdə tutulur. Eləcə də bir sıra təşkilatların birləşmə yolu ilə yenidən təşkili hədəflənib. Məsələn, "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs "Sosial Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxsin ona qoşulması yolu ilə "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" publik hüquqi şəxs Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin ona qoşulması yolu ilə "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" publik hüquqi şəxs qismində yenidən təşkil olunur.

Yeni yaradılacaq qurumların konkret vəzifələri də müəyyənləşdirilib. Müvafiq Fərmana əsasən, "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs medianın inkişafının dəstəklənməsi, media sahəsində mütəxəssislər hazırlanması və onların əlavə təhsilinin təşkili, audiovizual, çap, onlayn media subyektlərinin və informasiya agentliklərinin, habelə jurnalistlərin və digər media işçilərinin fəaliyyətinin, eləcə də media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması istiqamətində fəaliyyət göstərən, habelə ictimai münasibətlərin inkişaf dinamikasını



sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına (qurumlarına) təqdim edən publik hüquqi şəxs kimi müəyyənləşdirilib. "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" publik hüquqi şəxs isə dünyada və regionda baş verən proseslərin təhlili, beynəlxalq münasibətlər və təhlükəsizlik məsələləri ilə bağlı fundamental araşdırmalar aparılması, bu məsələlərə dair ölkəmizin mövqeyinin beynəlxalq ictimai, siyasi və akademik dairələrə çatdırılması, Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) elmi-təhlili materiallarla təmin edilməsi sahəsində fəaliyyət göstərən, habelə azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin edən, Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıdan və mövcud multikultural modelləri tədqiq və təşviq edən publik hüquqi şəxs kimi fəaliyyət göstərəcək.

## Ölkənin su təhlükəsizliyinin möhkəmləndirilməsinə həssas yanaşma

Dövlət başçısının müvafiq Fərmanı ilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" və "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxslərin yenidən təşkili strateji önəm daşıyan su təhlükəsizliyi məsələsinə son dərəcə həssas yanaşmanın ifadəsidir. Son vaxtlarda dövlət bu sahəyə böyük diqqət ayırır. Xatırladaq ki, Prezident İlham Əliyev yanvarın 12-də imzaladığı müvafiq Sərəncamla "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üçün Dövlət Proqramı"nı təsdiqləyib. Eyni zamanda, həmin tarixdə dövlət başçısının sədriyi ilə Dövlət Proqramına həsr olunan müşavirə keçirilib. Fərmanla təsdiqlənən struktur islahatları da bu siyasətin davamıdır.

Dövlətin su təhlükəsizliyinə həssas yanaşması isə təsadüfi deyil. Bu məsələnin aktuallığını artıran bir sıra ciddi amillər var. İlk növbədə onu qeyd edək ki, respublika üzrə yerüstü su ehtiyatlarının təqribən 75 faizi qonşu ölkələrdən daxilolmaların hesabına formalaşır və qlobal iqlim dəyişikliyi həmin su axımlarının həcminə də öz təsirini göstərir. Qonşu ölkələrdən, xüsusilə də Ermənistan ərazisindən daxil olan suların mütəmadi olaraq çirkləndirilməsi də çox ciddi problemdir. Eyni zamanda, qlobal iqlim dəyişmələri və orta temperaturun yüksəlməsi, yağıntıların və çaylarda sululuğun əhəmiyyətli dərəcədə azalması su ehtiyatlarının həcminə mənfi təsir göstərir. Digər bir vacib faktor isə Azərbaycanın davamlı inkişafı ilə bağlıdır. 2004-cü ildən başlayaraq Azərbaycanda ardıcıl olaraq regional inkişaf proqramları qəbul edilib. Həmin proqramların icrası çərçivəsində bölgələrimiz də iqtisadi güc mərkəzlərinə çevrilib, regionlarda iri təsərrüfatlar yaradılıb və beləliklə də, suvarma və içməli su təchizatı üzrə şəbəkələr genişləndirilib. Bütün bunların nəticəsi olaraq suya tələbat artıb.

Bu kimi reallıqlar nəzərə alınmaqla son 22 ildə ölkəmizdə genişmiqyaslı su layihələrinin icrasının prioritetliyi təmin edilsə də, bu sahədə həlli vacib məsələlər də kifayət qədər çoxdur. Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılovun məlumatına əsasən, Bakı şəhərindəki su və kanalizasiya sistemləri əsasən 1980-ci illərin sonuna qədər hazırlanıb və o gündən bu günə qədər yaşayış məntəqələrinin ərazisi 2,6 dəfə, əhalisi isə 2,1 dəfə artıb. Əsas magistral xətlərin istismar müddəti çoxdan başa çatıb, müasir nəzarət sistemləri də standartlara heç bir şəkildə cavab vermir. Bunların çoxunun ömrünün 40-50 il olmasını nəzərə alsaq, onların istismar müddəti artıq başa çatıb. Əksər yağış suyu kollektorlarının kanalizasiya xətlərinə qoşulması səbəbindən sistemlərdə əlavə yüklənmələr yaranır. Bir çox magistral xətlərin mühafizə zonalarının tikinti altına düşməsi, kanalizasiya şəbəkəsinin məhdud olması da təcili qaydada tədbirlər görülməsini zərurətə çevirib.

Bütün bu kimi məsələlərin həllini hədəfləyən Dövlət Proqramının təsdiqlənməsindən sonra indi növbə struktur islahatlarına çatıb. Bu islahatlar dövlət başçısının təsdiqlədiyi milli su strategiyasının hədəflərinə tam uyğundur. Fərmanla "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti meliorasiya və irriqasiya sahəsində xidmətlər göstərən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını və mühafizəsini, balansında (istifadəsində) olan su təsərrüfatı obyektlərinin (su anbarlarının, kanalların, boru xətlərinin və s.) istismarını, həmçinin Azərbaycan Respublikasının rayon və şəhərlərində (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Naxçıvan və Şirvan şəhərləri istisna olmaqla) istehlakçıların məişət (təsərrüfat) - içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini həyata keçirən dövlətə məxsus kommersiya hüquqi şəxs kimi müəyyənləşdirilib. "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyəti isə Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Naxçıvan və Şirvan şəhərlərində istehlakçıların məişət (təsərrüfat) - içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini həyata keçirən dövlətə məxsus kommersiya hüquqi şəxs kimi fəaliyyət göstərəcək. Su təsərrüfatında nəzərdə tutulan struktur islahatlar ilk növbədə idarəetmənin optimallaşdırılması, nəzarətin gücləndirilməsi və itkilərin minimuma endirilməsi, eləcə də keyfiyyətin daha da yaxşılaşdırılması məqsədi daşıyır.

*Mübariz ABDULLAYEV*

# Milli iradə və yeni reallıqlar qarşısında "isterik tutmalar"

## Pallonelərdən: narahatlıq, qısqanclıq və məğlubiyyətin etirafı

**Yeni reallıqla barışmaq istəməyən qüvvələr alternativ təzyiq mexanizmləri axtarmağa başlayırlar. Lakin Azərbaycanın artan iqtisadi və siyasi çəkisi bu cəhdləri səmərəsiz edir**

Son altı ildə Azərbaycan Cənubi Qafqazın siyasi xəritəsində təkcə coğrafi mövqeyinə görə deyil, strateji qərarları və qlobal proseslərə təsir imkanlarına görə də mərkəzi aktora çevrilib. Bu dövr ərzində Bakı regional reallıqları dəyişdirən, uzun illər davam edən münaqişəyə son qoyan, nəticələrini hüquqi və siyasi müstəviyə keçirən, yeni əməkdaşlıq formatlarının yaranmasına təşəbbüs göstərən və geosiyasi nizamın formalaşmasında fəal rol oynayan bir dövlət modelini ortaya qoyub. Azərbaycanın təşəbbüsləri artıq lokal çərçivəni aşaraq Avrasiya miqyasında təsir gücünə malikdir.

Məhz bu kontekstdə son illərdə Azərbaycana qarşı informasiya təxribatlarının, siyasi manipulyasiyaların və müxtəlif platformalarda aparılan qarayaxma kampaniyalarının artması təsadüfi deyil. Çünki bölgədə formalaşan yeni reallıq əvvəlki status-kvonun qorunmasında maraqlı olan dairələrin maraqlarına ziddir. Əvvəllər region üzərində təsir imkanlarına malik olan bəzi mərkəzlər üçün Azərbaycanın müstəqil qərarvermə siyasəti və sürətli inkişaf strategiyası arzuolunan ssenari deyildi.

Azərbaycan isə bu proseslərə emosional deyil, rasional yanaşma ilə cavab verir. Dövlətin əsas xətti regional təhlükəsizliyin təmin olunması, iqtisadi inteqrasiyanın genişləndirilməsi, nəqliyyat və enerji xəritəsinin yenidən qurulması və sülh gündəliyinin davamlı şəkildə irəli aparılmasıdır. Son altı ildə əldə edilən nəticələr göstərir ki, Bakı artıq yalnız hadisələrə reaksiya verən tərəf deyil, prosesləri formalaşdıran aktordur.

**6 ilə nail olunan saysız uğurlar...**

Bu yeni mərhələ həm böyük imkanlar, həm də qısqanclıq və narahatlıqlar yaradır. Azərbaycanın diqtəsi altında formalaşan bu yeni düzən anti-Azərbaycan dairələrin arzuları ilə uzlaşmır - bu mənada, Azərbaycana qarşı təxribatların səbəblərini anlamaq üçün ilk növbədə ölkənin son illərdə əldə etdiyi nailiyyətlərin miqyasına nəzər salmaq lazımdır.

- Azərbaycan bölgədə təhlükəsizlik arxitekturası formalaşdırıb;

Son illərdə Azərbaycan Cənubi Qafqazda hərbi-siyasi balansı dəyişərək yeni təhlükəsizlik sistemi qurub. Münaqişə sonrası mərhələdə sərhədlərin müəyyənləşdirilməsi, ordunun modernləşdirilməsi və regional təhlükəsizlik mexanizmlərinin təşkili bu arxitekturanın əsas elementləridir. Bu model xarici müdaxilədən daha çox regional məsuliyyət prinsipinə əsaslanır və davamlı sabitliyi hədəfləyir.

- Azərbaycan bölgədə yeni iqtisadi münasibətlər sistemi qurub;

Bakı regional əməkdaşlığı yalnız siyasi deyil, iqtisadi platformada da gücləndirib. Yeni ticarət marşrutları, sərmayə layihələri və qarşılıqlı asılılıq mexanizmləri bölgə ölkələrini əməkdaşlığa təşviq edir. Nəticədə iqtisadi inteqrasiya siyasi sabitliyin təminatçısına çevrilir.

- Azərbaycan bölgədə yeni geocoğrafi məkan anlayışı formalaşdırıb;

Türk Dövlətləri Təşkilatı kimi platformalarda fəallıq, C6-nın yeni və güclü aktor kimi ön plana çıxması həm də Cənubi Qafqazın yeni identikliyini formalaşdırır. Bu yanaşma Cənubi Qafqazı qarşıdurma meydanı deyil, əməkdaşlıq məkanı kimi təqdim edir. Geocoğrafi baxımdan region artıq qapalı zona deyil, açıq və inteqrativ platformadır.

- Yeni marşrutlar şəbəkəsi və logistika yaradıb;

Orta dəhliz və Zəngəzur istiqamətində planlaşdırılan kommunikasiya xətləri Avrasiyanın nəqliyyat xəritəsini dəyişir. Azərbaycan Şərq ilə Qərb arasında alternativ və təhlükəsiz marşrut təqdim edir. Bu logistika infrastrukturu həm iqtisadi, həm də geosiyasi əhəmiyyət daşıyır.

- Yeni enerji dəhlizləri yaradıb;

Azərbaycan enerji təhlükəsizliyində mühüm tərəfdaş kimi çıxış edir. Qaz və elektrik ötürmə xətləri Avropanın enerji xəritəsində mühüm yer tutur. Enerji diplomatiyası Bakının beynəlxalq mövqeyini daha da gücləndirir.

- "Yaşıl enerji" gündəliyi formalaşdırıb;

Bərpaolunan enerji layihələri və beynəlxalq tərəfdaşlıqlar Azərbaycanın gələcək inkişaf modelinin əsas istiqamətidir. Xüsusilə külək və Günəş enerjisi layihələri regionun ekoloji təhlükəsizliyinə töhfə verir. Bu yanaşma ölkəni enerji keçidinin fəal iştirakçısına çevirir.

- Regional sülh gündəliyini qlobal müstəviyə daşıyıb;

Azərbaycan post-münaqişə mərhələsində sülh təşəbbüslərini beynəlxalq platformalarda fəal şəkildə irəli sürür. Sülh müqaviləsinin hazırlanması və danışıqların davam etdirilməsi regional sabitliyi gücləndirir. Bakı sülhün təminatçısı kimi çıxış edir.

- Separatçıları ədalət məhkəməsi qarşısına çıxarıb;

İllərlə qanunsuz fəaliyyət göstərən separatçı strukturların məsuliyyətə cəlb olunması hüquqi dövlət prinsipinin təsdiqidir. Bu addım beynəlxalq hüququn aliliyini nümayiş etdirir. Ədalətin bərpası münaqişənin siyasi yox, hüquqi müstəvidə yekunlaşdığını göstərir.




Bu nailiyyətlərin hər biri ayrıca strateji uğurdur və bir çox dövlətlərin onilliklər ərzində reallaşdırdığı proseslərlə müqayisə oluna bilər. Azərbaycan isə bütün bunları cəmi altı il ərzində həyata keçirərək regional güc mərkəzinə çevrilib.

**Köhnə mərkəzlərin yeni reallıqdan narahatlıqları**

Uzun illər ərzində Cənubi Qafqaz müəyyən güc mərkəzlərinin təsir dairəsi kimi qəbul edilirdi. Bu mərkəzlər regionda davam edən münaqişə vəziyyətindən siyasi alət kimi istifadə edir, balanslaşdırılmış qeyri-sabitlik strategiyası vasitəsilə təsir imkanlarını qoruyurdular. Azərbaycanın qətiyyətli siyasəti və post-münaqişə dövründə ortaya qoyduğu hüquqi yanaşma bu sxemi pozdu.

Xüsusilə separatçı rejimin nümayəndələrinin məsuliyyətdən yayındırılması istiqamətində aparılan cəhdlər göstərirdi ki, bəzi dairələr köhnə status-kvonu saxlamaq niyyətindədir. Lakin Bakı bu məsələdə geri çəkilmədi və prosesləri beynəlxalq hüquq çərçivəsində davam etdirdi. Nəticədə qanunsuz dəstənin ləğvi və onların təmsilçilərinin məsuliyyətə cəlb olunması yeni mərhələnin başlanğıcı oldu.

Bu addım yalnız hüquqi məsələ deyildi, həm də siyasi mesaj idi: regionda qanunsuzluq dövrü bitib. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi müzakirə predmeti deyil. Bu isə uzun illər region üzərində təsir mexanizmi quran dairələrin planlarını alt-üst etdi.

Vaşinqton kimi paytaxtlarda baş verən təxribat xarakterli təşəbbüslər də məhz bu kontekstdə dəyərləndirilməlidir. Çünki yeni reallıqla barışmaq istəməyən qüvvələr alternativ təzyiq mexanizmləri axtarmağa başlayırlar. Lakin Azərbaycanın artan iqtisadi və siyasi çəkisi bu cəhdləri səmərəsiz edir.

**Sülh prosesinin geridönməzliyi və beynəlxalq zəmanət**

Ermənipərəst dairələr uzun müddət hesab edirdilər ki, lobbi imkanları vasitəsilə sülh prosesini uzada, qeyri-müəyyənlik yarada və yeni status-kvo formalaşdıra bilərlər. Lakin proseslərin inkişafı bunun əksini göstərdi. Azərbaycan diplomatik səbr və ardıcıl siyasət sayəsində sülh gündəliyini davamlı şəkildə irəli apardı.

2025-ci ilin avqustunda Vaşinqtonda keçirilən zirvə görüşü və paraflanan sənədlər göstərdi ki, sülh artıq real siyasi mərhələyə qədəm qoyub. Bu, yalnız iki ölkə arasında razılaşma deyil, həm də beynəlxalq zəmanət mexanizmlərinin formalaşması deməkdir. Region uzun illərdən sonra qeyri-müəyyənlik mərhələsini arxada qoyur.

Sülh prosesinin geridönməzliyi Ermənistan daxilində də etiraf edilir. Baş nazir Nikol Paşinyan dəfələrlə yeni mərhələnin Ermənistan üçün iqtisadi və siyasi imkanlar açdığını vurğulayıb. Bu isə göstərir ki, regionda artıq konfrantasiya yox, əməkdaşlıq perspektivi üstünlük qazanır.

Belə bir şəraitdə sülhə mane olmaq istəyən qüvvələrin cəhdləri nəticəsiz qalır. Çünki artıq proses təkcə regional deyil, qlobal siyasi gündəmin bir hissəsidir. Bu da onu göstərir ki, yeni mərhələnin qarşısını almaq mümkün deyil.

**Daxili sabitlik və milli həmrəylik faktoru**

Hər bir xarici təzyiqin effektivliyi daxili zəiflikdən asılıdır. Azərbaycanda isə son illər xalq-hakimiyyət birliyi daha da möhkəmlənib. Sosial-iqtisadi layihələr, infrastrukturun bərpası və milli həmrəylik siyasəti daxili sabitliyi təmin edən əsas amillərdir.

Anti-Azərbaycan qüvvələr ölkə daxilində qeyri-sabitlik yaratmaq üçün müxtəlif cəhdlər göstərsələr də, bu planlar iflasa uğrayıb. Dövlət təhlükəsizlik mexanizmləri və hüquqi institutlar bu cəhdlərin qarşısını vaxtında alıb.

Xarici mərkəzlərə bağlı fəaliyyət göstərən şəbəkələrin ifşası göstərir ki, informasiya və siyasi təxribatlar koordinasiyalı şəkildə həyata keçirilirdi. Lakin ictimaiyyətin siyasi şüuru və dövlətin institusional gücü bu planları təsirsiz etdi.

Daxili sabitlik həm də iqtisadi inkişafın əsas şərtidir. Yeni investisiyalar, azad edilmiş ərazilərdə quruculuq işləri və regional layihələr ölkənin gələcək inkişaf modelini möhkəmləndirir. Bu isə göstərir ki, daxili möhkəmlik xarici təzyiqlərə qarşı ən güclü sipərdir. Belə bir şəraitdə ucuz təxribatların nəticə verməsi mümkün deyil. Azərbaycan cəmiyyəti artıq informasiya manipulyasiyalarına qarşı daha dayanıqlıdır.

**Ermənipərəst konqresmen təxribatı niyə dəstəklədi?**

Bu təxribatın ideya müəllifinin ermənipərəst lobbiyə bağlılığı inkaredilməzdir - hazırda ölkəmizdə dövlət çevrilişinə cəhddə ittiham olunan Əli Kərimli və bir sıra digər xəyanətkarkar üçün "azadlıq" tələb edən bu adamların ABŞ-də Erməni Milli Komitəsindən (ANCA-dan) və erməni lobbisi ilə əlaqələri bilinən Frenk Pallone tərəfindən dəstəklənməsi diqqət çəkir. Təxribatçıların Pallone kimi "məşhur" konqresmen tərəfindən dəstəklənməsi ötəri hal deyil - bu həmin Pallonedir ki,  44 günlük Vətən müharibəsi və 2023-cü il antiterror əməliyyatlarından sonra Azərbaycana qarşı qətnamələrin qəbulu üçün saysız cəhdlər edib. Bu şəxs ermənilərin 30 ilə yaxın yürütdüyü zorakılığı və işğalı dəstəkləyib - paralel olaraq, ermənilərin Azərbaycan torpağında törətdikləri ekoloji təcavüzü belə normal qarşılayıb. 1992-ci ildə qəbul edilmiş "Azadlığa Dəstək Aktı"na "907-ci düzəlişin dəstəkçilərindən və təbliğatçılarından sayılan Pallone ölkəmizə qarşı mənfi münasibəti ilə seçilib - 1999-cu ildə Konqresin bir qrup nümayəndəsi ilə Azərbaycanda səfərdə olan zaman çadır şəhərciklərində yaşayan qaçqın və məcburi köçkünlərlə görüşdən imtina etmiş yeganə deputat olub. Eyni zamanda, 2024-cü ilin ilin sentyabrında o dövrün ABŞ administrasiyasının "xeyir-duası" ilə Konqresdə müzakirəyə çıxarılan "Artsax Gəlirlərinin Bərpası Aktı"nın müəlliflərindən biri də məhz Pallone olub.

Pallonenin ermənipərəst davranışları saymaqla bitməz - bu baxımdan onun təxribatçıları dəstəkləməsi, əslində, çox şeydən xəbər verir...

**Təxribatla bağlı bəyanat...**

Bütün bunlar bir daha təsdiq edir ki, fevralın 19-da Vaşinqtonda baş verən təxribat cəhdləri ölkəmizə qarşı qısqanclığın, uğurlarımızdan narahatlığın göstəricisidir. Xatırladaq ki, Prezident İlham Əliyevin Sülh Şurasının ilk iclasında iştirak məqsədilə Amerika Birləşmiş Ştatlarına səfəri çərçivəsində fevralın 19-da bir qrup etirazçı Vaşinqton şəhərində yerləşən "Waldorf Astoria" mehmanxanasının qarşısında təxribatçı hərəkətlər törədib. Prezident korteji mehmanxana ərazisinə yaxınlaşarkən, etirazçılar mühafizə olunan əraziyə zorla daxil olmağa cəhd ediblər və Prezident avtomobilinə yönəlik hücum aktları həyata keçiriblər. Bu qrup, həmçinin Azərbaycan rəhbərliyinə qarşı nalayiq ifadələr işlədib. Bu barədə Azərbaycanın ABŞ-dəki səfirliyinin yaydığı bəyanatda qeyd edilir ki, dövlət başçısının mühafizə edilən nəqliyyat vasitəsinin hərəkətinə maneçilik törədilməsinin və ya fiziki müdaxilə olunmasının ciddi təhlükəsizlik təhdidi yaratdığını nəzərə alan Prezidentin Təhlükəsizlik Xidmətinin dərhal müdaxilə etməkdən başqa seçimi qalmayıb. Təhlükəsizlik tədbirləri standart əməliyyat prosedurlarına uyğun olaraq, yalnız təhlükəsizlik və mühafizənin təmin edilməsinə yönəlib. Səfirlik bildirib ki, ABŞ-nin Gizli Xidməti tərəfindən bəyan olunduğu kimi, mehmanxana ərazisi rəsmi təhlükəsizlik perimetrinə daxil olub: "Beləliklə, ölkənin liderinə və mühafizə olunan korteјə qarşı yönəlmiş hərəkətlərə cavab olaraq həyata keçirilmiş təhlükəsizlik tədbirlərinin yanlış təqdim edilməsi və ya əsaslandırılmamış iddialar yayılması cəhdlərini qətiyyətlə rədd edirik".

**Təxribatçıların Palloni kimi "məşhur" konqresmen tərəfindən dəstəklənməsi ötəri hal deyil - bu həmin Pallonedir ki,  44 günlük Vətən müharibəsi və 2023-cü il antiterror əməliyyatlarından sonra Azərbaycana qarşı qətnamələrin qəbulu üçün saysız cəhdlər edib. Bu şəxs ermənilərin 30 ilə yaxın yürütdyü zorakılığı və işğalı dəstəkləyib - paralel olaraq, ermənilərin Azərbaycan torpağında törətdikləri ekoloji təcavüzü belə normal qarşılayıb. 1992-si ildə qəbul edilmiş "Azadlığa Dəstək Aktı"na "907-ci düzəlişin dəstəkçilərindən və təbliğatçılarından sayılan Pallone ölkəmizə qarşı mənfi münasibəti ilə seçilib - 1999-cu ildə Konqresin bir qrup nümayəndəsi ilə Azərbaycanda səfərdə olan zaman çadır şəhərçiklərində yaşayan qaçqın və məcburi köçkünlərlə görüşdən imtina etmiş yeganə deputat olub**

*P.İSMAYILOV*




# Cənubi Qafqazda yeni geosiyasi xəritə

## Orta Dəhliz, sülh prosesi və "TRIPP" layihəsi fonunda Azərbaycanın rolu

Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən panel müzakirəsində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı regionda formalaşmaqda olan yeni geosiyasi və iqtisadi reallıqların konturlarını açıq şəkildə ortaya qoydu. Son üç ildə Cənubi Qafqaz yalnız münaqişədən sonrakı bərpa mərhələsinə keçməklə kifayətlənməyib, eyni zamanda Avropa ilə Asiya arasında strateji tranzit mərkəzinə çevrilmək istiqamətində sürətli transformasiya yaşayır. Prezident Əliyevin təqdim etdiyi rəqəmlər Azərbaycanın logistika potensialının artıq nəzəri deyil, real iqtisadi faktora çevrildiyini göstərir. 2024-cü ildə Azərbaycan ərazisindən daşınan yüklər üzrə 100 mindən artıq nəqliyyat vahidi qeydə alınıb ki, bu da ölkə tarixində rekord göstəricidir. Rəsmi proqnozlara görə, yaxın illərdə bu rəqəm 200-300 min vahidə, uzunmüddətli perspektivdə isə 500 min nəqliyyat vahidinə çatdırılmalıdır. Bu artım təsadüfi deyil. Son onillikdə Azərbaycan Bakı Beynəlxalq Dəniz Ticarət Limanını inşa edib və genişləndirir, Bakı-Tbilisi-Qars dəmir yolunu istifadəyə verib, magistral avtomobil və hava nəqliyyatı şəbəkəsini yeniləyib, Xəzər dənizi boyunca multimodal logistika sistemini formalaşdırıb. Prezidentin vurğuladığı kimi, coğrafi mövqe yalnız infrastrukturla birlikdə üstünlüyə çevrilir. Azərbaycan məhz bu mərhələni artıq geridə qoyduğunu nümayiş etdirir.

## Rəqəmsal İpək yolu: Xəzərin dibi ilə fiber-optik kabel

Paneldə diqqət çəkən məqamlardan biri yalnız fiziki nəqliyyat deyil, rəqəmsal bağlantı layihələrinin də gündəmə gətirilməsi oldu. Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında Xəzər dənizinin dibi ilə fiber-optik kabelin çəkilməsi layihəsi 2026-cı ildə tamamlanmalıdır. Bu təşəbbüs Avropa ilə Asiya arasında məlumat ötürülməsi marşrutlarını diversifikasiya etməklə enerji və logistika ilə yanaşı rəqəmsal təhlükəsizlik məsələlərini də əhatə edir. Beləliklə, Orta Dəhliz təkcə yük daşımaları deyil, gələcəkdə data və texnologiya axınlarının da əsas xəttinə çevrilə bilər.

Prezident Əliyevin çıxışında ən mühüm siyasi mesaj Ermənistanla münasibətlərə aid idi. Onun sözlərinə görə, 2025-ci ilin avqustunda Vaşinqtonda ABŞ prezidenti Donald Trampın iştirakı ilə paraflanmış sənəd faktiki olaraq sülhün əldə olunduğunu göstərir. Avqustdan sonra sərhəddə atəşkəs pozuntuları qeydə alınmayıb, ölən və yaralanan olmayıb, tərəflər arasında iqtisadi əməkdaşlıq başlayıb.

Azərbaycan artıq Ermənistan üçün neft məhsullarının təchizatına start verib və tranzit məhdudiyyətlərini aradan qaldırıb. Bu, regionda ilk dəfə olaraq iqtisadi əməkdaşlığın siyasi razılaşmadan əvvəl formalaşması nümunəsi kimi təqdim olunur.

Rəsmi Bakının mövqeyinə görə, sülh müqaviləsinin imzalanması üçün əsas şərt Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılmasıdır. Prezident bu addım atılacağı halda sənədin "növbəti gün" imzalana biləcəyini bildirib.

Müzakirənin əsas mövzularından biri "Trump International Route for Peace and Prosperity (TRIPP)" layihəsi oldu. Layihə Çindən başlamaqla

Çin - Mərkəzi Asiya - Xəzər regionu - Azərbaycan - Ermənistan - Naxçıvan - Türkiyə - Avropa marşrutunu əhatə edir. Bu marşrutun əsas xüsusiyyəti yalnız logistika deyil, siyasi inteqrasiyadır. Əliyevin fikrincə, qarşılıqlı iqtisadi asılılıq regionda uzunmüddətli sülhün əsas təminatına çevrilə bilər. Maraqlı detal isə ABŞ şirkətlərinin layihədə mümkün iştirakı ilə bağlıdır. Açıq mənbələrə istinadən bildirilib ki, infrastrukturu idarə edəcək şirkətdə pay bölgüsü ilkin mərhələdə 76 faiz ABŞ, 24 faiz Ermənistan şəklində nəzərdə tutulur və layihənin hüquqi çərçivəsi təxminən 100 illik perspektiv üçün planlaşdırılır.

Prezident İlham Əliyev qeyd edib ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi və Bakı-Tbilisi-Qars dəmir yolu kimi iri layihələr ABŞ-ın birbaşa iştirakı olmadan həyata keçirilib. Lakin Tramp administrasiyası dövründə Vaşinqtonun Orta Dəhlizə artan marağı yeni investisiya imkanları yarada bilər. Bu, ABŞ-ın Avrasiya nəqliyyat xəritəsində yenidən fəallaşmasının göstəricisi kimi qiymətləndirilir.

## Tranzit xəritəsinin görünməyən gücü: Çin-Mərkəzi Asiya oxu

Çindən Avropaya yük daşımalarının mümkünlüyü Mərkəzi Asiya olmadan real deyil. Çin hazırda Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Xəzər xətti üzrə yeni dəmir yolu layihəsini maliyyələşdirir. Bu xəttin də Xəzər üzərindən Azərbaycana çıxması planlaşdırılır. 2024-cü ilin noyabrında Azərbaycanın Mərkəzi Asiya Məşvərət formatına qoşulması isə regionlararası inteqrasiyanın yeni mərhələsi kimi qiymətləndirilir - Cənubi Qafqaz ölkəsinin ilk dəfə bu platformaya daxil olması diplomatik presedent sayılır.

Çıxışda diqqət çəkən digər məsələ Ukraynada Azərbaycan obyektlərinə edilən hücumlarla bağlı idi. Prezident bildirdi ki, Azərbaycanın Ukraynadakı səfirliyi üç dəfə hücuma məruz qalıb, enerji obyektlərinə zərbələr endirilib, Moskvaya diplomatik kanallar vasitəsilə etiraz notaları təqdim olunub. Bakı bu məsələdə yalnız diplomatik mexanizmlərdən istifadə etdiyini vurğulasa da, hadisələr "dostyana addım" kimi qiymətləndirilməyib.

Müzakirələrin ümumi mənzərəsi göstərir ki, Cənubi Qafqazda formalaşan model klassik geosiyasi rəqabətdən daha çox iqtisadi inteqrasiya üzərində qurulur. Azərbaycan, Gürcüstan və Ermənistan arasında mümkün üçtərəfli əməkdaşlıq regionu uzun illər davam edən qarşıdurma məkanından Avrasiya tranzit qovşağına çevirə bilər. Prezident Əliyevin əsas mesajını isə belə ümumiləşdirmək olar: sənədlər sülhün başlanğıcıdır, lakin real sülh yollar, dəmir yolları, enerji xətləri və qarşılıqlı iqtisadi asılılıq üzərində qurulur. Əgər planlaşdırılan layihələr həyata keçərsə, XXI əsrin yeni İpək Yolunun əsas düyün nöqtələrindən biri məhz Cənubi Qafqaz olacaq.

*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

# Bir gecənin faciəsi

## 1994-cü il fevralın 24-də Milli Məclis Xocalı soyqırımı ilə bağlı ayrıca qərar və dünya azərbaycanlılarına müraciət qəbul edib



**İlham Əliyev: Hər birimizin ürəyində qisas hissi var, hər birimiz o qanlı tarixə qayıdanda, o dəhşətli video və fotosənədlərə baxanda bizi qəzəb boğur, 30 il yox, 300 il keçsə də, bu qəzəb bizi buraxmayacaq. Bu təbiidir, biz insanıq, ancaq, eyni zamanda, biz böyük xalqın nümayəndələriyik. O xalqın ki, öz gücü ilə o əsarətdən çıxdı, o xalq ki, bir yumruq kimi birləşərək düşmənin belini qırdı, o düşmənin ki, onun arxasında o vaxt və bu gün böyük dövlətlər dayanır**

**Xocalı, 26 fevral 2024-cü il**



Tarixin bu günündə - 1994-cü il fevralın 24-də Milli Məclis qan yaddaşımızda əbədi qalacaq Xocalı faciəsi ilə bağlı ayrıca qərar və dünya azərbaycanlılarına müraciət qəbul edib. Bəhs olunan qərara əsasən, ölkəmizdə 26 fevral "Xocalı soyqırımı günü" kimi müəyyənləşdirilib.

**Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda kimi faciələrlə bir sırada dayanan Xocalı soyqırımı**

Ermənilər yeri gəldi-gəlmədi özlərini dünyaya "mədəni xalq" kimi təqdim etməyə çalışırlar. Ancaq bu təbliğat mifik səciyyə daşıyır. Ermənilərin zaman-zaman Azərbaycan xalqına münasibətdə əl atdıqları qəddarlıqlar, yol verdikləri müharibə cinayətləri onların "mədəni xalq" mifində həqiqət payının sıfıra bərabər olduğunu əyani şəkildə təsdiqləyir. Xalqımız təkcə XX əsrdə ermənilər tərəfindən 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə olmaqla düz dörd dəfə dəhşətli deportasiyalara məruz qalıb.

Xocalı faciəsi də ermənilərin qəddarlığını bütün cəhətləri ilə açıb ortaya qoyur. Bu faciə dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda kimi soyqırımları ilə bir sırada dayanır.

Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Qırğın zamanı 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Həmçinin 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib. Qətlə yetirilən insanlardan 56 nəfəri xüsusi qəddarlıqla - diri-diri yandırılaraq, başının dərisi soyularaq, boynu vurularaq, gözləri çıxarılaraq, hamilə qadınların isə qarın boşluğuna süngü ilə vurularaq öldürülüb.

Tarixi abidələri ilə fərqlənən, Azərbaycan tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edən qədim mədəniyyətə, strateji önəmə malik Xocalı şəhəri işğalın nəticəsində xarabalığa çevrilib. Ermənilərin insanlığa sığmayan dəhşətli cinayət əməlləri nəticəsində Xocalı şəhərində 105 sosial-məişət obyekti, 3200 fərdi yaşayış binası, 14 məktəb, 21 klub, 29 kitabxana, üç mədəniyyət evi və bir tarix-diyarşünaslıq muzeyi dağıdılıb. Bununla yanaşı, şəhərdə XIV-XV əsrə aid türbələr, günbəzlər, məzarlar yerlə-yeksan olunub, qəbiristanlıq vandallara xas üsullarla dağıdılıb, ümumiyyətlə, bu torpağın ən qədim sakinləri olan azərbaycanlılara aid bütün izlər silinib.

**AXC- "Müsavat" iqtidarı Xocalı faciəsinə hüquqi-siyasi qiymət verməyə tələsmədi**

Xocalı faciəsini törədən, uşaqları, qadınları, qocaları xüsusi qəddarlıqla qətlə yetirən və sonradan bunu milli səviyyədə "qəhrəmanlıq dastanına" çevirən ermənilərin mənəviyyatsızlığı, insanlıqdan kənar olmaları öz yerində. Belə əməllər yalnız nifrətə layiqdir. Ancaq o dövrdə Azərbaycana rəhbərlik edən şəxslərin məsuliyyətsizliyi də heç bir ölçüyə sığmır. Həmin ərəfədə ermənilərin silahlanmasına, hücuma keçməyə hazırlaşmalarına aid xəbərlər gəlirdi. Xocalı sakinlərinin yaratdıqları yerli özünümüdafiə dəstələrinin müqavimətinə baxmayarq, şəhər ətrafında mühasirə həlqəsi getdikcə daralırdı. Bakıdan, respublika rəhbərliyindən kömək istənilirdi. Bununla belə, xocalıların fəryadına ögey münasibət bəslənildi. Şəhərin müdafiəsi, oradan əhalinin çıxarılması üçün hansısa bir tədbir görülmədi və nəticədə faciə qaçılmaz oldu.

Eyni zamanda, siyasi çəkişmələrin nəticəsi olaraq 1992-ci ilin yazında qeyri-qanuni yolla hakimiyyətə gələn AXC- "Müsavat" iqtidarı Xocalı faciəsinə hüquqi-siyasi qiymət verməyə tələsmədi. Bu da səbəbsiz deyildi. Bəhs olunan cütlük hakimiyyətə aparan yollarını xalqın məhrumiyyətləri və faciələri üzərindən açmışdılar. Onların yeganə məqsədi hakimiyyətə gəlmək idi və bu istəklərinə çatdıqdan sonra verdikləri bütün vədləri unutdular.

Xocalı faciəsinə siyasi qiymət 1993-cü ilin yayında xalqın tələbi ilə Azərbaycanın siyasi hakimiyyətinə qayıdan böyük siyasətçi Heydər Əliyevin təkidli səyləri sayəsində verildi. Milli Məclisdə bəhs olunan qərar da məhz Heydər Əliyevin təşəbbüsü əsasında çıxarıldı. Bundan sonra Prezident Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilib. Həmçinin 1998-ci ildə Heydər Əliyevin müvafiq Sərəncamında Xocalı faciəsi soyqırımı adlanıb. 2002-ci ildə isə Milli Məclisdə soyqırımının 10 illiyi qətnaməsində 1992-ci ilin 26 fevralında baş verənlər soyqırımı kimi tanınıb.

**Xocalının azadlığına qovuşması**

Vətən müharibəsində işğal altındakı ərazilərimizin böyük hissəsi geri qaytarılsa da, Xankəndi, Xocalı, və bəzi başqa yaşayış məntəqələrində suverenliyimiz hələ də təmin olunmamışdı. Qalib Azərbaycan tarixi ərazilərimizdə, o cümlədən də Xocalıda separatizm yuvasının qalması ilə barışa bilməzdi. Buna görə də Vətən müharibəsi şanlı Zəfərimizlə başa çatandan sonra Azərbaycan cəmiyyətində haqlı suallar yaranmışdı: Bəs Xankəndi, Xocalı necə olacaq? Həqiqətən də, biz necə barışa bilərdik ki, zamanında bir gecənin içində yerlə-yeksan edilən, soyqırımı faciəsi yaşayan Xocalı separatçıların əlində qalsın. Əslində, Özünün təbirincə desək, nəyi necə və nə zaman etməyi hamıdan yaxşı bilən Prezident İlham Əliyev Xankəndinin, Xocalının və digər yaşayış məntəqələrimizin də separatçılardan təmizlənməsinin planlarını götür-qoy etmişdi. Sadəcə, O, bu planların həyata keçirilməsi üçün uyğun zamanın gəlməsini, müvafiq şəraitin yetişməsini gözləyirdi. Nəhayət, dövlətimizin başçısı 2023-cü il sentyabrın 19-da lokal xarakterli antiterror tədbirlərinin keçirilməsi ilə bağlı tapşırıqlarını verdi. Silahlı Qüvvələrimizin yüksək peşəkarlıqla həyata keçirdiyi antiterror tədbirləri cəmi 23 saat ərzində uğurla tamamlandı və separatçılar ağ bayraq qaldırmaq məcburiyyətində qaldılar. Digər yaşayış məntəqələrimiz kimi, Xocalı da azadlığına qovuşdu.

Hazırda Xocalı şəhərində və rayonun yaşayış məntəqələrində bərpa-quruculuq işləri böyük sürətlə davam etdilir. Eyni zamanda, xocalıların yurd həsrətinə də son qoyulur. Belə ki, indiyədək Xocalıya da bir neçə köç karvanı yola salınıb. Bu günlərdə - fevralın 19-da Xocalı rayonunun Xanabad kəndinə ilk köç həyata keçirilib. Xanabad kəndinə ilkin mərhələdə 154 nəfərdən ibarət 38 ailə qayıdıb.

***Mübariz FEYİZLİ***

# "Şəhərsalma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasəti"







Fevralın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurası və YAP Nəsimi rayon təşkilatının birgə təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində "Şəhərsalma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasəti" mövzusunda tədbir keçirilib.

Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) inzibati binasında keçirilən tədbirdə əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov Prezident İlham Əliyev tərəfindən 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi qərarının əhəmiyyətindən danışıb. O, bu təşəbbüsün şəhərsalma siyasətində keyfiyyətli dəyişikliklərə və müasir memarlığın inkişafına töhfə verəcəyini vurğulayıb. Qeyd edib ki, cari il ərzində reallaşdırılacaq layihələr həm sosial infrastrukturun, həm də estetik mühitin daha da təkmilləşdirilməsinə xidmət edəcək. Eyni zamanda, təşkilatın üzvləri şəhərsalma və memarlıq sahəsində keçirilən tədbirlərdə fəal iştirak edəcəklər.

YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə bildirib ki, qloballaşan dünyada şəhərsalma insan həyatının keyfiyyətini artırmaq, ətraf mühiti qorumaq və iqtisadi inkişafı təmin etmək baxımından mühüm prioritetlərdən birinə çevrilib. Onun sözlərinə görə, şəhərlər sürətlə böyüyür, lakin bu prosesin planlı və dayanıqlı olması gələcək nəsillərin rifahı üçün həyati əhəmiyyət kəsb edir. Azərbaycan inkişaf strategiyasında şəhərsalmanı insan mərkəzli, ekoloji və iqtisadi cəhətdən dayanıqlı şəkildə formalaşdırmağa xüsusi önəm verir.

YAP Veteranlar Şurasının sədri qeyd edib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən şəhərsalma proqramları, müasir infrastruktur layihələri və işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri bu sahədə Azərbaycanı regionun qabaqcıl ölkəsinə çevirib.

Çıxış edən MİDA-nın İdarə Heyətinin sədri Sadiq Sadıqov deyib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir şəhərsalma və memarlıq siyasəti Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində uğurla davam etdirilir. Əlavə edib ki, şəhərsalma sahəsində Azərbaycanın uğurlu fəaliyyəti layiqincə qiymətləndirilərək, irimiqyaslı qlobal tədbirlərdən hesab edilən Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərara alınıb. Bu mötəbər tədbir əldə edilən tarixi nailiyyətlər fonunda dövlətimizin qlobal miqyasda etimada layiq görüldüyünü bir daha təsdiqləyir.

MİDA-nın respublikamızda, o cümlədən işğaldan azad edilmiş ərazilərimizdə gördüyü işlər haqqında danışan S.Sadıqov bildirib ki, əhalinin güzəştli şərtlərlə mənzillərə sahib olmasını təşkil etmək məqsədi ilə rəhbərlik etdiyi Agentlik 10 illik fəaliyyəti dövründə Bakıda və regionlarda ümumilikdə 18 layihəyə start verib. İndiyədək təxminən 12 min mənzildən ibarət 8 güzəştli mənzil layihəsinin tikintisi tam başa çatdırılıb. 3 minə yaxın mənzildən ibarət 3 güzəştli mənzil layihəsi isə yekunlaşmaq üzrədir.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov isə şəhərsalma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasəti barədə geniş məruzə ilə çıxış edib. Məruzədə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan şəhərsalma siyasətinin artıq ən müasir səviyyəyə çatdırıldığı vurğulanıb. U.Ələkbərov deyib ki, hazırda bu sahədə yüksək idarəetmə və inklüziv inkişaf mövcuddur: "Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Ölkədə şəhərsalma və urbanizasiya sahəsində qəbul edilmiş yanaşmalar iqtisadi dayanıqlılığa, sosial-iqtisadi rifaha, iqlim dəyişmələrinə uyğunlaşmaya töhfə verir".

U.Ələkbərov qeyd edib ki, dünyada genişmiqyaslı şəhərsalma transformasiyası həyata keçirilir. O vurğulayıb ki, Azərbaycan ən qabaqcıl şəhərsalma modellərini tətbiq edir, çoxsaylı beynəlxalq tərəfdaşları ilə genişmiqyaslı əməkdaşlıq qurur. Bildirilib ki, diqqət mərkəzində olan məsələlərdən biri də şəhərsalma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasətinin ən müasir tələblərə uyğun təşkil olunmasıdır.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə türk xalqlarının, o cümlədən azərbaycanlıların ən qədim şəhərsalma mədəniyyətinə malik olduğunu söyləyib. Xalqımızın şəhərsalma mədəniyyətinin 5000 illik tarixə malik olduğunu qeyd edən natiq bildirib ki, Azərbaycan memarlıq məktəbinin nümayəndələri tarixdə Uzaq Şərqdən Kordovaya qədər nadir memarlıq nümunələri yaradıblar.

E.Qasımzadə ölkəmizdə "Şəhərsalma və Memarlıq İli"nin bir sıra mühüm hadisələrlə, o cümlədən memar Əcəmi Naxçıvaninin anadan olmasının 900 və Azərbaycan Memarlıq İttifaqının yaradılmasının 90 illiyi ilə əlamətdar olduğunu diqqətə çatdırıb.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şəhərsalma və Ərazilərin inkişafı şöbəsinin müdir müavini Şahnaz Bədəlova çıxışında qeyd edib ki, şəhərsalma sahəsi dünyada sürətli transformasiya mərhələsindən keçir. Onun sözlərinə görə, hazırda dünya əhalisinin təxminən 51 faizi şəhərlərdə yaşayır və BMT-nin proqnozlarına əsasən bu göstəricisinin 2050-ci ilə qədər 68 faizə çatacağı gözlənilir. Azərbaycanda da urbanizasiya prosesi davam edir.

YAP Veteranlar Şurasının üzvü Tahir Məmmədov çıxışında Azərbaycanda memarlıq ənənələrinin inkişafı barədə fikirlərini bildirib. O qeyd edib ki, ölkəmizin zəngin memarlıq irsi həm tariximizi, həm də mədəni dəyərlərimizi nümayiş etdirir. Memarlıq abidələrinin qorunması və gələcək nəsillərə çatdırılması hər bir vətəndaşın ümdə vəzifələrindən biridir. Tahir Məmmədov, həmçinin müasir şəhərsalma layihələrinin milli ənənələrlə uzlaşmasının əhəmiyyətini vurğulayıb.

Sonra tədbir interaktiv formada davam edib, iştirakçıların sualları cavablandırılıb.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Azərbaycan qlobal miqyasda nüfuzlu dövlət və etibarlı tərəfdaşdır

## "Gənclərin siyasət və analitika mərkəzi" layihəsinin açılış tədbiri keçirilib








Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının "Gənclərin siyasət və analitika mərkəzi" siyasi, strateji, ictimai və geosiyasi proseslərin təhlili layihəsinin açılış tədbiri keçirilib.

Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli və YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov çıxış edərək layihənin əhəmiyyəti, əsas ideya və gələcək fəaliyyəti ilə bağlı məlumat veriblər. Qeyd olunub ki, layihənin əsas məqsədi gənclərin strateji düşüncə və analitik bacarıqlarının inkişaf etdirilməsi, regional və beynəlxalq prosesləri düzgün qiymətləndirmə qabiliyyətlərinin gücləndirilməsidir.

Sonra Trend Beynəlxalq İnformasiya Agentliyinin Baş direktorunun müavini, "Baku Network" Ekspert Platformasının direktoru, Əməkdar jurnalist Elçin Alıoğlu "Müasir geosiyasi proseslər və Azərbaycan" mövzusunda təlim keçib.

Bildirilib ki, müasir dövrdə beynəlxalq münasibətlər sistemi dərin transformasiya mərhələsindən keçib. Qeyd olunub ki, qlobal güc balansının dəyişməsi, regional münaqişələr, enerji təhlükəsizliyi məsələləri, nəqliyyat-logistika xətlərinin yenidən formalaşması və rəqəmsal transformasiya geosiyasi proseslərin əsas istiqamətlərini müəyyən edir. Bu mürəkkəb şəraitdə isə Azərbaycanın rolu və mövqeyi xüsusi əhəmiyyət daşıyır.

Diqqətə çatdırılıb ki, Azərbaycan milli maraqlara əsaslanan xarici siyasət kursu yürüdərək həm regional, həm də qlobal səviyyədə etibarlı tərəfdaş kimi çıxış edir. Azərbaycan Cənubi Qafqaz regionunda Şərq ilə Qərbi, Şimal ilə Cənubu birləşdirən strateji körpü rolunu oynayır. Bu baxımdan Orta Dəhliz layihəsi və beynəlxalq nəqliyyat marşrutları Azərbaycanın tranzit ölkə kimi rolunu daha da gücləndirir. Eyni zamanda, enerji təhlükəsizliyi sahəsində mühüm aktor kimi çıxış edən Azərbaycan Xəzər hövzəsinin enerji resurslarının dünya bazarlarına çatdırılmasında da əhəmiyyətli rol oynayır.

Tədbir interaktiv formada davam edib, gənclərin sualları cavablandırılıb.

# Türk dövlətləri yeni iqtisadi hədəflər müəyyənləşdirir

## TDT nazirlərinin iclasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb

Qazaxıstanın Türküstan şəhərində keçirilən Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin iqtisadiyyat və ticarət nazirlərinin 14-cü iclasında ticarət, investisiya, rəqəmsal transformasiya və digər istiqamətlərdə əməkdaşlığın inkişafı müzakirə edilib. Tədbirdə çıxış edən iqtisadiyyat nazirinin müavini Rövnəq Abdulayev bildirib ki, qardaş ölkələr arasında dərin tarixi və mədəni köklər üzərində qurulmuş möhkəm münasibətlər siyasi, iqtisadi, humanitar sahələrdə birgə uğurlara gətirib çıxarmaqdadır. TDT çərçivəsində çoxtərəfli əməkdaşlığa önəm verən Azərbaycan üzv dövlətlərlə iqtisadi əlaqələrin dərinləşdirilməsi və qarşılıqlı ticarətin asanlaşdırılması istiqamətində mühüm addımlar atır. Azərbaycanın Özbəkistan, Qırğızıstan və Qazaxıstanla birgə yaratdığı ikitərəfli investisiya fondları ölkələrimiz arasında kapital axınının sürətlənməsinə, sənaye və investisiya layihələrinin maliyyələşdirilməsinə əlverişli şərait yaradır.



### TDT ölkələrinin ÜDM-i 6,2 faiz yüksəlib

Statistikaya əsasən, 2025-ci ildə TDT ölkələrində Ümumi Daxili Məhsul (ÜDM) artım tempi təxminən 6,2 faiz yüksəlib ki, bu da qlobal iqtisadi artımın orta göstəricisindən (3 faiz) səviyyəsindən xeyli yüksəkdir. TDT ölkələrinin ümumi ÜDM-i 1,8 trilyon dollara çataraq qlobal ÜDM-in təxminən 2 faizini formalaşdırır. TDT ölkələrinin ümumi ticarət dövriyyəsi 960 milyard dolları ötərək qlobal ticarətin təxminən 3,6 faizini təşkil etməkdədir. Bu göstərici regionun qlobal ÜDM-dəki payından yüksək olmaqla, TDT iqtisadiyyatlarının xarici inteqrasiyasının dərinliyini əks etdirir. Enerji ixrac edən ölkələr ticarət profisitlərini qoruyub.

İnvestisiya fəallığı da TDT ölkələrində yüksək səviyyədə olub. Sabit kapitala yönələn investisiyalar iri infrastruktur layihələri, nəqliyyat-logistika təşəbbüsləri və enerji layihələri hesabına genişlənib. Maliyyə sektorunda vasitəçilik imkanları artıb. Türkiyədə bank aktivləri 1,05 trilyon dolları ötüb, Qazaxıstan və Özbəkistanda isə bank aktivlərində ikirəqəmli artım qeydə alınıb. İnvestisiya axınları əsasən enerji infrastrukturu, istehsal gücləri, logistika və rəqəmsal xidmətlər üzərində cəmləşib.

### Orta Dəhlizdə ortaq qərarlar

Tədbirdə TDT çərçivəsində iqtisadi əməkdaşlığın dərinləşdirilməsi, ticarətin asanlaşdırılması, investisiyaların təşviqi, rəqəmsal transformasiya və digər məsələlər müzakirə edilib. Nəqliyyat və logistika sahəsində tərəfdaşlığın genişləndirilməsi, Orta Dəhlizin səmərəliliyinin artırılması ətrafında fikir mübadiləsi aparılıb. Vurğulanıb ki, Azərbaycan türk dövlətləri ilə nəqliyyat sahəsində də əməkdaşlığı gücləndirir, son illər ərzində nəqliyyat infrastrukturunu - avtomobil yolları, dəmir yolu xətləri, dəniz limanı, gəmiqayırma zavodu, hava nəqliyyatı böyükhəcmli sərmayələr hesabına müasirləşdirilir. Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Hazırda Bakı gəmiqayırma zavodunda 10 yeni gəmi inşa edilir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyəti 15 milyon tondan 25 milyon tona çatacaq. Azərbaycanda 8 beynəlxalq hava limanı fəaliyyət göstərir. Sayca 9-cu hava limanı yaxın zamanlarda istifadəyə veriləcək. 9 beynəlxalq hava limanından 3-ü Azərbaycanın erməni işğalından azad edilmiş ərazisindədir. Həmçinin 1,5 milyon ton yük qəbuletmə imkanı olan karqo terminalı inşa edilir.

Nəqliyyat infrastrukturunun modernləşdirilməsi açıq dənizlərə çıxışı olmasa da, Azərbaycanı Asiya və Avropa arasında nəqliyyat-logistika mərkəzlərindən birinə çevirib və imkanlar durmadan daha da artır. Türkiyənin və Mərkəzi Asiya dövlətlərinin Azərbaycan ərazisindən tranzit keçən daşımalarının həcmi 2024-cü ildə 11 milyon ton təşkil edib. Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaradan Azərbaycan müştərək müəssisələr qurmaqla, Orta Dəhlizin coğrafiyasını ən işlək haba çevirməkdədir. Bu dəhlizin ən axıcı qollarından biri olan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun daşıma qabiliyyəti keçən il Azərbaycanın vəsaiti hesabına 5 milyon tona çatdırılıb ki, bu da, BTQ-nin nəqliyyat xəritəsində strateji əhəmiyyətindən xəbər verir.

### Azərbaycan türk dünyasında aparıcı investordur

Azərbaycan TDT platformasında regional və qlobal trans-milli layihələrdə fəal rol oynayır, sərmayə təşəbbüskarlığı ilə fərqlənir. Respublikamızı TDT ölkələrinin iqtisadiyyatına 30 milyard dollara yaxın sərmayə qoymaqla qardaş dövlətlərin enerji, kimya, sənaye, tikinti,  nəqliyyat sahələrinin inkişafına töhfə verməkdədir. Bu, Azərbaycanın sərmayədar ölkə kimi TDT-də aktiv investisiya imicini göstərir.

TDT-nin iqtisadiyyat və ticarət nazirlərinin diqqət çəkdiyi əsas məsələlərdən biri Türk İnvestisiya Fondunun (TİF) fəaliyyətinin artırılması ilə bağlı olub.

Azərbaycan bu platformada da fəal rol oynayır, fondun maliyyə portfelinin formalaşmasında aktiv səhmdar kimi çıxış edir. Azərbaycan, Qazaxıstan, Qırğızstan, Türkiyə və Özbəkistan tərəfindən təsis edilmiş fond türkdilli ölkələrin iqtisadi-maliyyə-sərmayə baxışlarını və gələcək investisiya planlarını müəyyən etmək və həyata keçirmək üçün vahid donorluq funksiyasını üzərinə götürüb. Fondun məqsədi regiondaxili ticarəti genişləndirmək və iqtisadi fəaliyyətləri dəstəkləmək vasitəsilə TDT dövlətlərinin iqtisadi inkişafına töhfə verməkdir. Üzv ölkələrin üzvlük haqqı, investisya ayırmaları, əsas kapital və əlavə maliyyə alətlərindən formalaşacan Fondun nizamnamə kapitalı ilkin mərhələdə  500 milyon dollar müəyyən edilib, kapital fondu hər biri nominal dəyəri 50 min dollara bərabər 10 min paya bölünüb ki, burada hər üzv ölkənin limitə uyğun payı vardır. Bundan başqa, Fondun nizamnamə kapitalı ödənilmiş paylara və yenidən çağrıla bilən, yəni cəlb edilən paylara bölünüb ki, ümumi nominal dəyər 350 milyon dollar təşkil edir. Əlavə maliyyələşmədə ölkələr üzrə ümumi nominal dəyər isə 150 milyon dollardır. Gələcəkdə, Fondun maliyyə portfelinin daha da artırlaraq 1 milyard dolları ötəcəyi istisna olunmur.

### "Rəqəmsal İpək Yolu" ticari əlaqələri asanlaşdıracaq

TDT-nin mühüm prioritetlərindən biri də qardaş ölkələr arasında kommunikasiya əlaqələrinin yeni modellərinin və müasir rəqəmsal inkişaf formatlarının yaradılmasıdır. Türk dövlətləri arasında son illərdə qabaqcıl kommunikasiyaların mübadiləsi və artan iqtisadi dinamikadan qaynaqlanan yeni tələbatlar bir çox sahələrdə olduğu kimi vahid rəqəmsal platformada da koordinasiyanın qurulmasını aktuallaşdırır. Xüsusilə də, üzv ölkələr arasında regional ticarət həcmlərinin davamlı olaraq artması və qarşıdakı illərdə əlavə mal mübadiləsinin genişlənməsini təşviq edən yeni ölkələrarası razılaşmaların imzalanması rəqəmsal ticarətin əlaqələndirilməsini zəruri edir.

TDT ölkələrinin mövcud imkanlarından və infrastrukturundan istifadə etməklə Avropa ilə Asiya arasında yeni telekommunikasiya magistral marşrutu yaratmaq məqsədi daşıyan "Rəqəmsal İpək Yolu" layihəsinin fəal yerinə yetirilməsi qarşıdakı ilin əsas iqtisadi hədəflərindən biri olacaq. Türk dövlətlərinin hər birinin yerləşdiyi əlverişli coğrafi onların müasir dünyada ən innovativ iqtisadi platformalardan biri olan "Digital Hub" ətrafında sıx birləşməsi üçün əlverişli imkanlar yaradır. Özbəkistanın paytaxtı Səmərqənd şəhərində keçirilmiş IX Zirvə Görüşünün yekununda imzalanmış Səmərqənd Bəyannaməsində "Rəqəmsal İpək Yolu" layihəsi çərçivəsində Trans-Xəzər fiber-optik kabel infrastrukturunun yaradılmasını və özlərinin IT infrastrukturlarının bu dəhlizə inteqrasiyası üçün mövcud sistemlərin təkmilləşdirilməsi barədə razılığa gəlib. Müəyyən edilmiş strategiyaya əsasən, Xəzərin dibi ilə Trans-Xəzər fiber-optik kabel xəttinin çəkilişi 2026-cı ilə qədər tam başa çatdırılması nəzərdə tutulub.

Qardaş ölkələr öz mövcud rəqəmsal infrastrukturlarını vahid məkanda birləşdirməklə  yaxın illərdə "Rəqəmsal İpək Yolu" layihəsi ilə Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizinin əsas mərkəzinə çevriləcək

İclasda Birgə Kommünike və ticarət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. TDT-nin iqtisadiyyat və ticarət sahəsinə məsul nazirlərinin növbəti 15-ci iclasının 2026-cı ilin ikinci yarısında Azərbaycanda keçirilməsi qərara alınıb.

***ELBRUS CƏFƏRLİ***

# İsveçrə nə istəyir?

## Dünya sülh gözləyir, Bern separatizmə dəstək olur

30 il davam etmiş Ermənistanın işğal siyasəti, təcavüzü və nəhayət "Qarabağ münaqişəsi" 6 ildir ki, başa çatıb, tarixə qovuşub. Ötən 6 ildə Azərbaycan özünün ərazi bütövlüyünü, suverenliyini bərpa edib, qondarma separatçı rejimi ləğv edib, Azərbaycan qanunlarını pozan cinayətkarlara layiqli cəzalarını verib. Vaxtilə münaqişə tərəfləri olmuş Azərbaycan ilə Ermənisan arasında sülh sazişi razılaşdırılıb və paraflanıb - təxminən 6 aydır ki, regionda sülh şəraiti hökm sürür. Paralel olaraq hər kəs 2026-cı ildə sülh müqaviləsinin imzalanmasını gözləyir - bir sözlə, artıq yeni bir mərhələ, yeni bir dövr başlayır. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır, bununla bağlı Konstitusiyasında dəyişikliklər edilməsini istisna etmir. Bakı bu şərti zəruri sayır və sülh üçün yalnız bir addım qalır. Regiondakı yeni reallıqları artıq bütün dünya qəbul edib - hətta vaxtilə açıq şəkildə işğalçı Ermənistanı dəstəkləyən, separatçı rejimə legitimlik qazandırmaq üçün bütün vasitələrə baş vuran ölkə və təşkilatlar belə bu reallıqlarla barışıb. Amma deyəsən, bu realıqları tək bir dövlət ya "anlamayıb", ya da qəbul etmək istəmir...

### Revanşist ermənilərə açıq dəstək...

Bir az geriyə getsək, 2023-cü ildən sonra İsveçrə Konfederasiyasında Qarabağ məsələsi ilə bağlı bir sıra təşəbbüslər irəli sürüldü. Xüsusilə, parlamentdə "Swiss Peace Initiative for Nagorno-Karabakh" ("Dağlıq Qarabağ üzrə İsveçrə Sülh Təşəbbüsü") adlı layihə ortaya atıldı ki, bu da revanşist erməni qüvvələrinə açıq dəstək kimi qiymətləndirilirdi. Həmin dövrdə İsveçrə parlamentində "Dağlıq Qarabağ: Sülh Forumu" adlı bədnam qətnamə qəbul edildi - təxribatçı qətnamənin müəllifi deputat Erik Fontobel idi.

Bu qondarma iddia 2020-ci il atəşkəs razılaşmasından və 2023-cü il antiterror əməliyyatlarından sonra formalaşmış reallıqları inkar etmək cəhdi idi. Yəni açıq desək, İsveçrə parlamentariləri vəziyyəti Azərbaycanın hərbi qələbəsi olmayıbmış kimi və ya Qarabağ separatçıları acı məğlubiyyətə uğramayıbmış kimi anlamağa, hətta anlatmağa çalışırdılar. Prosesi bir az da irəli aparaq "Sülh Fondu" yaradılması ideyası belə ortalığa atıldı. Bütün bunlar isə paralel olaraq, sülh sazişinə gedən yolda maneələr yaratmaq cəhdi idi. İsveçrə parlamentinin bu addımları Ermənistandakı revanşist qüvvələrə birbaşa dəstək idi və təəssüf ki, hələ də belədir.

### Vətəndaş cəmiyyətinin İsveçrə səfirliyinə sualları...

Yeri gəlmişkən, Azərbaycan Milli QHT Forumu İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasındakı səfiri Tomas Ştəliyə (Thomas Stahli) açıq məktub ünvanlayıb. Məktubda bildirilir ki, Azərbaycan vətəndaş cəmiyyəti təsisatları İsveçrə Konfederasiyasında sistemli şəkildə anti-Azərbaycan narrativinin formalaşdırılması cəhdlərini müşahidə edir. İsveçrə parlamentinin hansısa "Sülh Forumu" adı altında ortaya atdığı bu narrativlər Ermənistanda revanşizmin alovlandırılmasına, Azərbaycanla Ermənistan arasında sülh prosesinə zərbə vurmağa xidmət edir. Azərbaycana qarşı nifrət üzərində qurulan iftira kampaniyası regionda sülh və etimad quruculuğunu zədələməyə, separatizmin yenidən təbliğinə yönəlib.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əleyhinə təxribatçı fəaliyyət, tarixin arxivinə göndərilmiş ritorika və terminologiyadan istifadə İsveçrə Konfederasiyasında adi hal almaqdadır. Bəzi İsveçrə parlamentarilərinin son vaxtlar Qarabağ məsələsini "bağlanmış" hesab etmədiyini tez-tez dilə gətirmələri, Erik Fontobelin və digərlərinin İrəvanda revanşistlərin "ofisləri"ndə görüşlər keçirmələri anlaşılmır. Qərargahı İsveçrədə yerləşən "Beynəlxalq Xristian Həmrəyliyi" təşkilatı isə Qarabağ məsələsini dini müstəvidə qələmə verməyə çalışır, Azərbaycana böhtan atır. "Biz bundan əvvəl də sizə üz tutaraq bildirmişdik ki, belə təşəbbüslər xüsusilə də İsveçrə kimi beynəlxalq hüquqa hörmət bəslədiyini iddia edən bir ölkənin parlamentində irəli sürüləndə, qəbul ediləndə və ya İsveçrə cəmiyyətinin bir hissəsi olan kilsə tərəfindən təşviq ediləndə, İsveçrə ərazisində keçiriləndə obyektivlik və bitərəflik prinsipinə zidd olaraq ikili standartların bariz nümunəsinə çevrilir", - deyə vurğulanan məktubda o da qeyd olunur ki, bu cür yersiz müdaxilələr qətiyyətlə pislənir, bu, Azərbaycanla Ermənistan arasındakı normallaşma prosesinə zərbə hesab edilir.

Məktubda, həmçinin İsveçrənin Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) 4 min nəfərə yaxın azərbaycanlı itkinin taleyini aydınlaşdırmaq əvəzinə, ölkəmizin suverenliyi, ərazi bütövlüyü əleyhinə addımlar atması, o cümlədən vaxtilə Xankəndidə icazəsiz ofis açması, "humanitar yardım" adı altında Azərbaycanın suveren ərazilərində qanunsuz ticarət dövriyyəsinin aparılmasının və bu fırıldaqçılığa göz yumulmasının, İsveçrənin Azərbaycandakı səfirliyinin Emin Hüseynov adlı birini aylarla inzibati binasında gizlətməklə, İsveçrə Xarici İşlər Nazirliyinin nümayəndəsi Didye Burkhalterin müşayiəti ilə qadın paltarında ölkədən qaçırmasının hansı məqsədi güdməsi haqda suallar ünvanlanıb. Azərbaycan Milli QHT Forumunun təmsilçiləri 100-lərlə Azərbaycan QHT-sini birləşdirən çətir təşkilat olaraq, səfirlə görüşə hazır olduğunu da vurğulayıb.



### Beynəlxalq etiraz...

Qeyd edək ki,  İsveçrənin bu addımları birmənalı şəkildə sülhə doğru yönələn təhlükəli addımlardır. Başqa sözlə, konfederasiya parlamenti qlobal sülhün ən mühüm elementlərindən sayılan Azərbaycan - Ermənistan arasındakı normallaşma prosesini hədəfə alır. Təsadüfi deyil ki, İsveçrənin bu yanaşması beynəlxalq dairələr və nüfuzlu siyasət adamları tərəfindən də narahatlıqla qarşılanır, birtərəfli mövqe kimi dəyərləndirilir. Məsələn, tanınmış politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham baş qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında dərc olunmuş "İsveçrənin planlaşdırdığı Qarabağ sülh forumu ikitərəfli olmalıdır" sərlövhəli məqaləsi bunu təsdiqləyir. Məqalədə bildirilir ki, İsveçrə parlamentinin keçirməyi planlaşdırdığı sülh forumu birtərəflidir. Orada etnik mənsubiyyətinə görə evlərindən qovulan və qaçqın həyatı yaşamağa məcbur olan bir milyona yaxın azərbaycanlının acınacaqlı vəziyyəti, habelə otuzillik erməni işğalı zamanı dağıdılan, xarabalığa çevrilən Azərbaycan məscidləri və digər mədəni irs obyektləri müzakirə edilmir. Forumda yalnız erməni mədəni irsinə dəymiş ziyandan və erməni köçkünlərinin vəziyyətindən bəhs edilir.

Yazıda İkinci Qarabağ müharibəsində və sonrakı hərbi əməliyyatlarda köçən ermənilərin acınacaqlı vəziyyətinin müzakirə olunacağı Qarabağ üzrə Sülh Forumuna İsveçrənin ev sahibliyi etmək istəyinə münasibət bildirilib. Qeyd olunub ki, İsveçrə Federal Assambleyasının (parlamentinin) Xarici Əlaqələr Komitəsi Azərbaycan hökuməti ilə Qarabağ erməniləri arasında açıq dialoqa başlamaq üçün bir ildən sonra sülh forumunun keçirilməsi barədə qətnamə qəbul edib. Diqqətə çatdırılıb ki, belə bir vəziyyət sözügedən forumu birtərəfli edir və İsveçrənin neytral xarici siyasətinə ləkə salır. Qeyd olunub ki, məhz buna görə İsveçrə parlamenti Birinci Qarabağ müharibəsi zamanı öz yurd-yuvasından didərgin düşmüş bir milyondan artıq azərbaycanlının acınacaqlı vəziyyətinə və otuzillik işğal zamanı ermənilərin törətdiyi dağıntılara siyasi və hüquqi qiymət verməli, Azərbaycanın o vaxtdan indiyədək gördüyü işləri yalnız bu kontekstdə müzakirə etməlidir.

### Beynəlxalq hüququ tanımayan İsveçrə...

İsveçrə hüquqi baxımdan beynəlxalq müstəvidə tərəfsiz dövlət kimi tanınır. Amma deyəsən, bəzən tərəfsizlik unudulur - və ya maraqlarla uzlaşmayanda arxa plana keçirilir. Azərbaycana münasibətdə də bu ikili standartın şahidi oluruq. Tutaq ki, Azərbaycanın mövqeyi ilə üst-üstə düşür deyə ədaləti, beynəlxalq hüququ, beynəlxalq qanunvericiliyi nəinki dəstəkləmək, hətta tanımaq belə istəmirsiz, heç olmasa neytrallıq qorunmalıdır. Axı, bu, rəsmi Bernin öhdəliyidir. Ermənilərə maddi yardım etmək, onların revanşist addımları davam etdirməsi üçün maliyyə tranşı, hətta marafon təşkil etmək İsveçrəyə başucalığı gətirməyəcək. Sadəcə, İsveçrə də bəzi qonşuları kimi sonradan həqiqətiin üzərinə getməyin mümkünsüzlüyünü görüb, peşman olacaq...

***P.SADAYOĞLU***



# Rusiya-Ukrayna müharibəsinin 4-cü ili...

## Yüz minlərlə itki, milyonlarla qaçqın, dağıdılan şəhərlər...

2022-ci ilin fevralında Rusiya Silahlı Qüvvələrinin Ukrayna ərazisinə genişmiqyaslı müdaxiləsi ilə başlayan müharibə artıq dördüncü ildir ki, davam edir. Yeni əsrin ən genişmiqyaslı qarşıdurmalarından sayılan bu müharibə, həm də post- "soyuq müharibə" dövrünün təhlükəsizlik arxitekturasına ciddi zərbə vurdu - 2014-cü ildən etibarən Krımın ilhaqı və Donbas bölgəsində başlayan silahlı qarşıdurma faktiki olaraq yeni mərhələyə keçid idisə, 2022-ci ildə başlanan müharibə qarşıdurmanı pik səviyyəyə qaldırdı.

4 il öncəyə qısa ekskurs etsək, həmin dövrdə siyasi fon kifayət qədər gərgin idi. Ukraynanın Qərb strukturları ilə inteqrasiyanı sürətləndirməsi, Avropa İttifaqı və NATO ilə yaxınlaşma siyasəti Moskva tərəfindən öz təhlükəsizliyinə təhdid kimi qiymətləndirilirdi. Kreml açıq şəkildə Ukraynanın NATO-ya üzvlük perspektivinə qarşı çıxır, Alyansın Şərqə doğru genişlənməsinin dayandırılmasını tələb edirdi. Rusiya tərəfindən irəli sürülən əsas tələblər arasında Ukraynanın neytral statusunun təmin olunması, NATO-nun hərbi infrastrukturunun Rusiya sərhədlərinə yaxın ərazilərdə yerləşdirilməməsi və təhlükəsizlik zəmanətlərinin hüquqi sənədlə təsbit olunması var idi.

Ukrayna isə suveren dövlət kimi öz xarici siyasət kursunu müəyyən etmək hüququna malik olduğunu vurğulayırdı. Kiyev rəhbərliyi üçün Avroatlantik inteqrasiya həm təhlükəsizlik təminatı, həm də siyasi və iqtisadi modernləşmə yolu kimi görülürdü. Bu ziddiyyətli mövqelər diplomatik danışıqlarla həll olunmadı və nəticədə hərbi eskalasiya baş verdi.

Müharibənin başlanması ilə Avropada təhlükəsizlik mühiti köklü şəkildə dəyişdi. Qərb dövlətləri Ukraynaya hərbi, maliyyə və siyasi dəstək göstərməyə başladılar, Rusiyaya qarşı isə misli görünməmiş sanksiyalar tətbiq olundu. Beləliklə, münaqişə regional çərçivədən çıxaraq qlobal geosiyasi qarşıdurmanın əsas xəttinə çevrildi. Dörd il ərzində həm cəbhə xəttində, həm diplomatik müstəvidə, həm də qlobal iqtisadi sistemdə ciddi dəyişikliklər baş verdi.

**Statistik mənzərə...**

Dörd il davam edən müharibə hər iki tərəf üçün ağır itkilərlə müşayiət olunub. Müxtəlif mənbələr fərqli rəqəmlər açıqlasa da, ümumi mənzərə ondan ibarətdir ki, on minlərlə hərbçi həyatını itirib və ya yaralanıb. Həm Rusiya, həm də Ukrayna cəbhədə ciddi canlı qüvvə itkisi ilə üzləşib. Müharibənin intensiv mərhələlərində xüsusilə Donetsk, Luqansk, Xarkov və Zaporojye istiqamətlərində ağır döyüşlər baş verib. Statistik rəqəmlərə əsaslansaq, Rusiya-Ukrayna müharibəsinin dördüncü ilində Rusiyanın itkiləri təsdiqlənmiş 165.661-dən çoxdur. itkin düşənlərin ümumi sayı isə 219.000-ə çatıb. BMT-nin məlumatlarına görə, müharibə nəticəsində bu günə qədər ən azı 15.172 ukraynalı mülki şəxs həlak olub, 41 378 nəfərdən çox insan yaralanıb. Həlak omuş ukraynalı hərbçilərin sayı ilə bağlı isə dəqiq məlumat yoxdur. Ötən 4 il ərzində Rusiya Ukrayna ərazisinin təxminən 20 faizinə (Krım və Donbas da daxil olmaqla təxminən 120 min kv.km) nəzarət edir.

Şəhərlərin dağıdılması müharibənin ən ağır nəticələrindən biridir. Mariupol, Baxmut, Severodonetsk kimi yaşayış məntəqələri demək olar ki, tamamilə dağıdılıb. Enerji infrastrukturu, su təchizatı sistemləri, yollar, körpülər və sənaye obyektləri ciddi zərər görüb. Ukrayna tərəfi infrastruktur itkilərinin yüz milyardlarla dollar həcmində olduğunu bəyan edir.

Vurtulandığı kimi, mülki əhali arasında itkilər də böyükdür. Minlərlə mülki şəxs həlak olub, on minlərlə insan yaralanıb. Uşaqlar arasında ölüm halları və psixoloji travmalar xüsusi narahatlıq doğurur. BMT və digər beynəlxalq qurumlar milyonlarla insanın məcburi köçkün və ya qaçqın vəziyyətinə düşdüyünü bildirir. Bu, Avropada İkinci Dünya müharibəsindən sonra ən böyük humanitar böhranlardan biri hesab olunur.

Müharibə ilə bağlı xüsusi təhlükə yaradan məsələlərdən biri də atom elektrik stansiyaları ətrafında yaranan gərginlikdir. Vaxtilə Zaporojye Atom Elektrik Stansiyası ətrafında gərgin döyüşlərin getməsi beynəlxalq ictimaiyyətdə ciddi narahatlıq yaratmışdı - nüvə obyektlərinin hərbi əməliyyat zonasında yerləşməsi potensial ekoloji və humanitar fəlakət riskini artırır. Beynəlxalq Atom Enerjisi Agentliyi dəfələrlə vəziyyətlə bağlı xəbərdarlıq edib və təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə çağırıb. Beləliklə, statistik rəqəmlər təkcə hərbi balansı deyil, həm də müharibənin insanlıq üçün ağır nəticələrini ortaya qoyur.

**İlkin diplomatik təmaslar...**

Müharibənin ilk aylarından etibarən təmas birdəfəlik kəsilmədi - diplomatik kanallar hələ də mövcud idi. 2022-ci ilin mart ayında tərəflər arasında ilkin danışıqlar keçirildi - Türkiyənin vasitəçilik təşəbbüsü ilə İstanbulda görüşlər baş tutdu. Bu görüşlərdə atəşkəs və humanitar məsələlər müzakirə olunsa da, yekun razılaşma əldə edilmədi.

Eyni zamanda taxıl ixracı ilə bağlı əldə olunan razılaşma, "Qara dəniz taxıl sazişi" qlobal ərzaq təhlükəsizliyi baxımından mühüm addım idi. 2022-ci ilin iyulunda imzalanan sazişdə vurğulanan mexanizm Ukrayna limanlarından taxılın təhlükəsiz ixracına imkan verdi və bir müddət dünya bazarlarında qiymət artımının qarşısını aldı. Lakin sonradan razılaşma dayandırıldı və proses yenidən qeyri-müəyyən mərhələyə keçdi.

Bu dövrdə BMT, Fransa, Almaniya və digər ölkələr də vasitəçilik təşəbbüsləri ilə çıxış etdilər. Lakin qarşılıqlı etimadsızlıq və cəbhədə davam edən hərbi əməliyyatlar diplomatik səylərin nəticə verməsini çətinləşdirirdi.

Müharibənin günü-gündən daha da alovlanmasının bir səbəbi də həmin dövrün ABŞ administrasiyasının münaqişəyə baxışı idi - ABŞ administrasiyasının siyasəti o dövrdə əsasən Ukraynaya hərbi və maliyyə dəstəyinin artırılmasına yönəlmişdi. Vaşinqtonun məqsədi Rusiyanın strateji zəiflədilməsi kimi qiymətləndirilirdi. Bu isə Moskva tərəfindən münaqişənin daha da alovlandırılması kimi qəbul olunurdu. Beləliklə, böyük güclər arasında geosiyasi rəqabət müharibənin uzanmasına təsir göstərən amillərdən birinə çevrildi.

**Danışıqlarda yeni mərhələ - Əbu - Dabi razılaşmaları...**

2025-ci ildən sonra beynəlxalq siyasi mühitdə müəyyən dəyişikliklər baş verdi. ABŞ-da hakimiyyətə gələn Donald Trump administrasiyası münaqişənin dinc yolla həlli istiqamətində təşəbbüslər irəli sürdü. Vaşinqtonun yeni yanaşması birbaşa danışıqların təşviqinə və kompromis axtarışına yönəldi. Ötən ilin yayında Vladimir Putin ABŞ-a səfər edərək yüksək səviyyəli görüşlər keçirdi. Bu, müharibə başlayandan sonra baş verən mühüm diplomatik hadisələrdən biri idi. Eyni zamanda, Volodimir Zelenski də ardıcıl olaraq ABŞ-a səfərlər edərək Ağ Ev rəhbərliyi ilə danışıqlar prosesində fəal iştirak etdi.

2026-cı ilin yanvarından etibarən isə danışıqlar daha intensiv xarakter alıb. Əbu-Dabi və Cenevrədə keçirilən görüşlərdə tərəflər öz mövqelərini daha aydın şəkildə ortaya qoyublar. Tam razılaşma əldə olunmasa da, müəyyən məsələlər üzrə yaxınlaşmalar müşahidə edilir. Artıq 300 nəfərdən artıq əsirin dəyişdirilməsi prosesi baş tutub. Eləcə də bu görüşlərdə atəşkəs mexanizmləri, təhlükəsizlik zəmanətləri və ərazilərin statusu ilə bağlı müzakirələr davam edir.

Bu mərhələ göstərir ki, diplomatik proses çətin və mürəkkəb olsa da, müəyyən irəliləyiş elementləri mövcuddur.

**Qlobal təhlükəsizliyə və iqtisadi sistemə təsirlər**

Münaqişənin bitməsinin ən vacib amillərindən biri bu hərbi eskalasiyanın qlobal təhlükəsizlik sisteminə ciddi zərbə vurmasıdır. Son 4 illik müharibə dövründə:

- Ərzaq təhlükəsizliyi təhdid altına düşüb;
- Dünyanın iqtisadi immuniteti zəifləyib;
- Silahlanmaya meyl və yatırım artıb - xüsusilə, Avropada silahlanma xərcləri çoxalıb;
- NATO-nun Şərq cinahında hazırlıq prosesi hələ də davam edir.

Bu isə beynəlxalq münasibətlərdə yeni bloklaşma meyllərini gücləndirib. Eyni zamanda, müharibə qlobal iqtisadi münasibətlərə də ağır təsir göstərib. Enerji bazarlarında kəskin dalğalanmalar baş verib - vurğulandığı kimi, ərzaq təhlükəsizliyi məsələsi xüsusilə inkişaf etməkdə olan ölkələr üçün ciddi problemə çevrilib. Sanksiyalar və qarşılıqlı iqtisadi məhdudiyyətlər beynəlxalq ticarət marşrutlarını dəyişdirib. Alternativ enerji və logistika layihələri gündəmə gəlib. Bu proses qlobal iqtisadi sistemin yenidən formalaşmasına səbəb olur. Beləliklə, müharibə təkcə regional qarşıdurma deyil, həm də beynəlxalq münasibətlər sistemində transformasiya yaradan amilə çevrilib.

**20 sanksiya paketi - sonuncu da hazırdır, amma...**

2022-ci ilin fevralından sonra Rusiya tarixində görünməmiş miqyasda iqtisadi və maliyyə sanksiyaları ilə üzləşdi. ABŞ, Avropa İttifaqı, Böyük Britaniya, Kanada, Yaponiya və digər dövlətlər koordinasiyalı şəkildə Moskvaya qarşı məhdudiyyətlər tətbiq etdilər. Bu sanksiyalar bir neçə əsas istiqaməti əhatə edirdi: maliyyə sektoru, enerji ixracı, yüksək texnologiyalar, hərbi sənaye kompleksi və fərdi şəxslərə qarşı məhdudiyyətlər. Məqsəd Rusiyanın müharibəni maliyyələşdirmə imkanlarını zəiflətmək və onu siyasi qərarlarında dəyişiklik etməyə məcbur etmək idi.

Ən ciddi addımlardan biri Rusiyanın bir sıra banklarının SWIFT beynəlxalq ödəniş sistemindən çıxarılması oldu. Bu, ölkənin qlobal maliyyə əməliyyatlarını çətinləşdirdi və xarici ticarət dövriyyəsinə təsir göstərdi. Eyni zamanda, Rusiya Mərkəzi Bankının xaricdə yerləşən ehtiyatlarının bir hissəsi donduruldu. Bu qərar rublun kəskin ucuzlaşmasına və ilkin mərhələdə maliyyə bazarlarında ciddi panikaya səbəb oldu.

Vurğulandığı kimi, indiyə qədər fərqli sektorları əhatə edən 19 sanksiya paketi qəbul edilib. 2022-ci ildən bəri qəbul olunan ardıcıl sanksiya paketləri Rusiyanın enerji, maliyyə, texnologiya, nəqliyyat və hərbi sənaye sahələrini əhatə edərək ölkənin beynəlxalq iqtisadi sistemdən təcrid olunmasına yönəlib. 2022-ci ildə Aİ tərəfindən Rusiyaya qarşı 8 sanksiya paketi qəbul edilib, 2023-cü ildə daha bir neçə sanksiya paketi bu siyahıya əlavə olunub. 13-cü sanksiya paketi 2024-cü ilin 23 fevralında, 14-cü paket isə həmin ilin 24 iyununda təsdiqlənib. 2024-cü ilin son sanksiya toplusu - 15-ci paket isə 16 dekabrda qüvvəyə mindi. Ötən il 3 sanksiya paketi qəbul edilib. Bunlardan birincisi fevralın 24-də qəbul edilmiş 16-cı paketdir. May ayında 17-ci, iyulda 18 -ci, oktyabrda isə 19-cu sanksiyalar paketi qəbul olunub. 20-ci sanksiyalar paketinin təsdiqi isə artıq bir neçə günə baş tuta bilər. 2026-cı ilin fevralın 24-dək təsdiqlənməsi planlaşdırılan paket Avropa İttifaqına (Aİ) üzv ölkələrin səfirlərinin razılığa gələ bilməməsi ilə gecikir. KİV-lər Aİ diplomatik xidmətinin rəhbəri Kaya Kallasa istinadən Avropa İttifaqı ölkələri xarici işlər nazirlərinin Brüsseldə keçirilən görüşündə Rusiyaya qarşı 20-ci sanksiyalar paketi barədə razılığa gələ bilməyəcəklərini yazırlar. "Əlbəttə, biz Rusiyaya qarşı 20-ci sanksiyalar paketini müzakirə edəcəyik. Bu gün irəliləyiş olmayacaq, lakin biz səylərimizi davam etdirəcəyik", - deyə diplomat vurğulayıb.

Moskvaya qarşı 20-ci sanksiyalar paketinə Rusiya neftini qanunsuz daşıyan kölgə donanması üçün dəniz xidmətlərinin tamamilə dayandırılması, bu ölkəyə lüks malların ixracına və oradan gübrə idxalına daha sərt məhdudiyyətlər qoyulması daxildir. Həmçinin platin, mis, iridium və rodium idxalı qadağan oluna bilər.

Qeyd edilən sanksiya paketlərində enerji sektoruna tətbiq olunan məhdudiyyətlər xüsusi əhəmiyyət daşıyırdı. Avropa ölkələri mərhələli şəkildə Rusiya qaz və neftindən asılılığı azaltmağa başladı, qiymət tavanı mexanizmi tətbiq olundu. Bu addımlar Moskvanın əsas gəlir mənbələrindən birinə zərbə vurmağı hədəfləyirdi. Lakin, eyni zamanda, Avropada enerji qiymətlərinin artmasına və alternativ mənbələrə sürətli keçid prosesinə səbəb oldu. Ümumilikdə, sanksiyalar müharibənin iqtisadi cəbhəsini formalaşdırdı. Onlar qlobal iqtisadi münasibətlərdə yeni xətt çəkdi, enerji və maliyyə sistemində alternativ mexanizmlərin yaranmasına təkan verdi. Lakin, eyni zamanda, dünya iqtisadiyyatında inflyasiya təzyiqlərini artırdı və beynəlxalq ticarətdə parçalanma meyllərini gücləndirdi. Bu baxımdan, sanksiyalar təkcə Rusiyaya deyil, qlobal iqtisadi sistemə də təsir edən amilə çevrildi.

**Regional münaqişədən qlobal qarşıdurmaya...**

Beləliklə, Rusiya-Ukrayna müharibəsinin dördüncü ili göstərir ki, bu qarşıdurma artıq klassik regional münaqişə çərçivəsini aşaraq qlobal siyasi və iqtisadi sistemə təsir edən əsas faktora çevrilib. Minlərlə insanın həyatı, dağıdılmış şəhərlər və sarsılmış iqtisadiyyatlar müharibənin ağır bədəlini nümayiş etdirir.

Diplomatik təşəbbüslər müxtəlif mərhələlərdə nəticəsiz qalsa da, son dövrdə danışıqların intensivləşməsi müəyyən ümidlər yaradır. Tərəflərin kompromisə hazır olub-olmaması və beynəlxalq aktorların rolu prosesin taleyini müəyyən edəcək.

Aydındır ki, davam edən müharibə nə Rusiya, nə Ukrayna, nə də dünya üçün arzuolunan ssenaridir. Qlobal təhlükəsizlik arxitekturasının sabitliyi, iqtisadi inkişafın davamlılığı və humanitar fəlakətlərin qarşısının alınması üçün siyasi iradə və real kompromis vacibdir.

Sülhün əldə olunması çətin və mərhələli proses olsa da, alternativi daha ağır nəticələr və uzunmüddətli qeyri-sabitlikdir. Buna görə də beynəlxalq ictimaiyyət və tərəflər üçün əsas prioritet münaqişənin dinc yolla, ədalətli və davamlı həllinə nail olmaqdır.

***P.İSMAYILOV***

# Ağ Evdən verilən mesajlar

## Tramp administrasiyasının yeni siyasi kursu və prioritetləri



Ağ Evdə keçirilən son mətbuat brifinqi ABŞ siyasətinin yaxın aylarda hansı istiqamətlərdə formalaşacağını aydın nümayiş etdirdi. Prezident Donald Trampın mətbuat katibi tərəfindən təqdim olunan açıqlamalar yalnız gündəlik siyasi xəbərlərin xülasəsi deyildi, həm də administrasiyanın iqtisadiyyatın, enerji, təhlükəsizlik və daxili siyasət üzrə strateji xəttinin konturlarını ortaya qoydu.

**Təhlükəsizlik gündəminin ön plana çıxması**

Brifinq emosional tonla başlandı. Ağ Ev rəhbərliyi ölkədə böyük rezonans doğurmuş Savanna Qutri işi ilə bağlı yeni müşahidə görüntülərini şəxsən prezident Trampın izlədiyini açıqladı. Prezident bütün amerikalıları Federal Təhqiqat Bürosu (FBI) ilə əməkdaşlığa çağıraraq hadisənin milli təhlükəsizlik və ictimai təhlükəsizlik məsələsi kimi qəbul edildiyini göstərdi. Bu yanaşma Tramp administrasiyasının cinayətkarlıq və hüquq-mühafizə mövzularını siyasi gündəmin mərkəzində saxladığını bir daha təsdiqlədi.

Həftənin əsas beynəlxalq hadisəsi İsrailin baş naziri Benyamin Netanyahu ilə Ağ Evdə keçirilmiş görüş oldu. Bu görüş ABŞ-İsrail münasibətlərinin yeni mərhələyə daxil olmasının siqnalı kimi qiymətləndirilir. Vaşinqtonun Yaxın Şərq siyasətində təhlükəsizlik əməkdaşlığını prioritet saxlaması Trampın əvvəlki prezidentlik dövründə formalaşdırdığı xəttin davamı kimi görünür.

Administrasiya həftənin əsas mövzularından birini enerji sektoruna həsr edib. Prezident Tramp "clean beautiful coal" adlandırdığı kömür enerjisinin ABŞ üçün ən etibarlı və ucuz enerji mənbələrindən biri olduğunu vurğulamağa hazırlaşır. Son qış fırtınaları zamanı yüz milyonlarla amerikalının enerji təminatında yaranan risklər bu arqumenti gücləndirən əsas fakt kimi təqdim olunur. Eyni zamanda, 2009-cu ildə - Obama administrasiyası dövründə qəbul edilmiş "endangerment finding" qərarının ləğvi planlaşdırılır. Ağ Ev bunu ABŞ tarixində ən böyük derequlyasiya addımı kimi təqdim edir və hesab edir ki, bu qərar iqtisadiyyatın təxminən 1,3 trilyon dollar həcmində yükünü aradan qaldıracaq. ABŞ Ətraf Mühitin Mühafizəsi Agentliyinin (EPA) hesablamalarına görə, yeni avtomobillərin qiymətində orta hesabla 2400 dollar qənaət mümkün olacaq.

**Vergi siyasəti və orta sinfə mesaj**

Brifinqdə iqtisadi mövzu xüsusi yer tutdu. Administrasiya Tramp tərəfindən imzalanmış vergi islahatını ABŞ tarixində orta sinfə ən böyük vergi güzəşti kimi təqdim edir. Yeni qaydalara əsasən, bəxşişlərdən və əlavə iş saatlarından vergi tutulmur, sosial təminat ödənişlərinə qoyulmuş vergi yüngülləşdirilir, uşaq vergi kreditləri artırılır, ABŞ istehsalı avtomobillər üçün kredit faizlərinə güzəştlər tətbiq olunur. Ağ Ev artıq ölkə üzrə minlərlə ailənin minlərlə dollar qənaət etdiyini bildirərək bu siyasəti yaşayış xərclərinin azaldılması strategiyasının əsas elementi kimi qələmə verir.

**"Trump Accounts": yeni sosial-iqtisadi model**

Administrasiyanın ən diqqətçəkən təşəbbüslərindən biri "Trump Accounts" adlı investisiya proqramıdır. 1 yanvar 2025 - 31 dekabr 2028 tarixləri arasında doğulan hər bir ABŞ vətəndaşı üçün dövlət tərəfindən 1000 dollar başlanğıc kapitalı ayrılması nəzərdə tutulur. Ailələr illik 5000 dollar, işəgötürənlər isə əlavə 2500 dollar yatırmaq imkanına malik olacaq. Ağ Evin hesablamalarına görə, orta bazar gəlirləri qorunduğu halda bu hesabların dəyəri uşağın 28 yaşı tamam olduqda 1,1 milyon dollara çata bilər. Bu təşəbbüs administrasiya tərəfindən "nəsillərarası sərvət formalaşdırılması" modeli kimi təqdim edilir.

Jurnalistlərin suallarına cavabda Ağ Ev qeyri-qanuni miqrasiya məsələsinə münasibətdə mövqeyini bir daha sərtləşdirdi. Administrasiya bildirir ki, ölkədə qanunsuz yaşayan hər bir şəxs deportasiya edilə bilər, lakin prioritet ağır cinayət törədənlərdir. Rəqəmlərə görə, saxlanılan miqrantların təxminən 70 faizi cinayət ittihamı və ya məhkumluq tarixçəsinə malikdir. Maraqlı məqam isə "zorakılıq olmayan cinayətlər" kateqoriyasına narkotik ticarəti, insan alveri, uşaqlara qarşı cinayətlər və maliyyə fırıldaqları kimi ağır hüquq pozuntularının daxil edilməsi oldu.

**İnfrastruktur, sərhəd divarı və "America first"**

Brifinq zamanı Kanada ilə Detroytu birləşdirən "Gordie Howe" körpüsü ətrafında yaranan mübahisə də gündəmə gəldi. Prezident Tramp layihədə ABŞ-ın daha böyük paya sahib olmalı olduğunu bildirərək iqtisadi faydaların bölüşdürülməsi məsələsini qaldırıb. Bu mövqe administrasiyanın klassik "America first" yanaşmasının davamı kimi qiymətləndirilir. Eyni zamanda, Texas sərhədində divar tikintisinin sürətləndirilməsi prezidentin əsas prioritetlərindən biri olaraq qalır. Brifinqin sonunda Ağ Ev media ilə münasibətlərdə açıq narazılıq nümayiş etdirdi. Mətbuat katibi iqtisadi göstəricilərin - "Dow Jones" indeksinin 50 min həddini ilk dəfə keçməsi, cinayət səviyyəsinin 125 ilin ən aşağı göstəricisinə düşməsi, kirayə qiymətlərinin 4 ilin minimumuna enməsi kimi xəbərlərin mediada kifayət qədər işıqlandırılmadığını vurğuladı. Bu çıxış administrasiyanın informasiya mübarizəsini də siyasi strategiyanın ayrılmaz hissəsi kimi gördüyünü göstərdi.

**Seçkiqabağı siyasi arxitektura**

Ağ Evdəki son brifinq Tramp administrasiyasının bir neçə istiqamətdə paralel şəkildə hərəkət etdiyini göstərir: enerji derequlyasiyası, sərt miqrasiya siyasəti, vergi güzəştləri, milli sənayenin qorunması və sosial investisiya proqramları. Bu yanaşma iqtisadi populizm, milli iqtisadiyyatın müdafiəsi və təhlükəsizlik diskursunun sintezindən ibarət yeni siyasi model formalaşdırmağa yönəlib. Vaşinqtondan verilən mesaj aydındır: administrasiya iqtisadi artım və milli təhlükəsizliyi eyni siyasi paketdə təqdim etməklə həm daxili auditoriyaya, həm də beynəlxalq tərəfdaşlarına ABŞ siyasətində yeni mərhələnin başlandığı mesajını verir.

# Cenevrə masası:

## sülhə doğru addım, yoxsa yeni diplomatik dalan?

İsveçrənin diplomatiya paytaxtı sayılan Cenevrə növbəti dəfə dünya siyasətinin diqqət mərkəzinə çevrildi. Ukrayna müharibəsinin taleyinə təsir edə biləcək üçtərəfli danışıqlar - Ukrayna, ABŞ və Rusiya nümayəndə heyətlərinin görüşü böyük gözləntilərlə başlasa da, konkret siyasi razılaşma olmadan başa çatdı. Buna baxmayaraq, tərəflərin dialoqu davam etdirmək qərarı münaqişənin hələ diplomatik mərhələdən çıxmadığını göstərir.



### İki gün davam edən çətin danışıqlar

Cenevrədə keçirilən məsləhətləşmələr iki gün çəkdi və son görüş təxminən iki saatlıq yekun sessiya ilə başa çatdı. Danışıqlar tam qapalı formatda keçirildi və rəsmi sənəd imzalanmadı. Rusiya nümayəndə heyətinə Prezident Administrasiyasının müşaviri, keçmiş mədəniyyət naziri Vladimir Medinski rəhbərlik edirdi. O, görüşdən sonra açıqlamasında danışıqları "çətin, lakin işgüzar" adlandırdı və yaxın vaxtlarda yeni raundun keçiriləcəyini təsdiqlədi.

Ukrayna tərəfinin mövqeyini isə ölkə Prezidenti Volodimir Zelenski sərt ifadələrlə qiymətləndirdi. Onun sözlərinə görə, hərbi məsələlərdə müəyyən texniki irəliləyiş hiss olunsa da, siyasi istiqamətdə tərəflərin mövqeləri hələ də ciddi fərqlənir. Ukrayna nümayəndə heyətinin rəhbəri, müdafiə naziri Rüstəm Umerov isə danışıqları "məzmunlu və intensiv" adlandıraraq təhlükəsizlik parametrləri və mümkün qərarların icra mexanizmlərinin müzakirə edildiyini bildirdi. Nazir qeyd etdi ki, əldə olunan nəticələr hələlik açıqlana bilməz, yekun qərarlar dövlət başçılarının səviyyəsinə təqdim edilməlidir.

Cenevrə görüşündə müzakirələrin iki əsas istiqamətdə aparıldığı bildirilir: hərbi istiqamət - mümkün atəşkəs mexanizmləri, cəbhə xəttində təhlükəsizlik zonaları və eskalasiyanın azaldılması yolları; siyasi istiqamət - münaqişənin gələcək hüquqi statusu, təhlükəsizlik təminatları və beynəlxalq nəzarət mexanizmləri. Məhz siyasi məsələlərdə tərəflər arasında ən ciddi fikir ayrılığı qalır. Kiyev müharibənin "ədalətli və davamlı sülhlə" başa çatmasını tələb edir, Moskva isə təhlükəsizlik arxitekturasının yenidən qurulmasını əsas şərt kimi irəli sürür.

### ABŞ-ın rolu: vasitəçi, yoxsa tərəf?

Danışıqlarda ABŞ nümayəndə heyəti mühüm rol oynayıb. Vaşinqton rəsmi olaraq vasitəçi mövqeyi nümayiş etdirsə də, Ukraynanın əsas hərbi və maliyyə tərəfdaşı olaraq prosesdə birbaşa maraqlı tərəf kimi çıxış edir. ABŞ prezidenti Donald Tramp administrasiyası müharibənin uzanmasının həm Avropada təhlükəsizliyə, həm də qlobal iqtisadiyyata risk yaratdığı qənaətindədir. Bu səbəbdən Vaşinqton diplomatik prosesin davam etməsində israrlıdır. Qərb mediasına sızan məlumatlara görə, danışıqların siyasi bloku faktiki olaraq dalana dirənib. Əsas fikir ayrılığı gələcək sülh modelinin necə olacağı və təhlükəsizlik zəmanətlərinin kim tərəfindən veriləcəyi məsələsi ətrafındadır. Analitiklər qeyd edirlər ki, tərəflər hazırda kompromisdən çox mövqelərini qorumağa çalışır. Bu isə Cenevrə prosesini uzunmüddətli diplomatik mübarizəyə çevirə bilər.

2022-ci ilin fevralında başlanmış Rusiya-Ukrayna müharibəsi artıq dördüncü ilini geridə qoyur. Cəbhədə vəziyyət dəyişkən olaraq qalır, lakin hər iki tərəf böyük itkilər fonunda paralel şəkildə siyasi həll yollarını da axtarmağa məcburdur. Ekspertlərin fikrincə, Cenevrə görüşü dərhal sülh gətirməsə də, ən azı bir faktı təsdiqlədi: tərəflər hələ danışmağa hazırdır. Müasir münaqişələrdə isə bu, bəzən atılan ən mühüm addım sayılır. Cenevrədə heç bir sənədə imza atılmadı, amma diplomatiya tarixində bəzən ən uzun müharibələr məhz belə - nəticəsiz görünən, lakin qapıları açıq saxlayan görüşlərlə sona doğru irəliləyib.

# Yaxın Şərq yeni müharibə astanasında

## Silah kölgəsində gedən böyük diplomatik oyunun nəticəsi necə olacaq?

Yaxın Şərq yenidən dünyanın diqqət mərkəzinə çevrilib. Son həftələrdə baş verən hadisələr göstərir ki, region faktiki olaraq müharibə ilə diplomatiya arasındakı təhlükəli bir xətt üzərində hərəkət edir. Uzun fasilədən sonra başlayan ABŞ-İran danışıqları ümid yaratsa da, paralel şəkildə güclənən hərbi hazırlıq bu ümidləri ciddi sual altına alır.

2026-cı ilin 6 fevral tarixində Oman Sultanlığının paytaxtı Maskatda ABŞ və İran nümayəndələri arasında dolayı danışıqların ilk raundu keçirildi. İran nümayəndə heyətinə ölkənin xarici işlər naziri Abbas Araqçi, ABŞ tərəfinə isə Prezident Donald Trampın xüsusi nümayəndəsi Stiven Uitkoff rəhbərlik edirdi. Görüş birbaşa deyil, Omanın vasitəçiliyi ilə aparıldı ki, bu da tərəflər arasında etimad səviyyəsinin hələ də aşağı olduğunu göstərir.

İran tərəfi danışıqların yalnız nüvə proqramı ilə bağlı olduğunu bildirdi. Tehran uranın zənginləşdirilməsindən tam imtinanı qəti şəkildə rədd etdi, yalnız zənginləşdirmə səviyyəsinin məhdudlaşdırılması və beynəlxalq nəzarət mexanizmlərinin müzakirəsinə hazır olduğunu açıqladı. ABŞ isə daha geniş paketlə - raket proqramının məhdudlaşdırılması və regional təsirin azaldılması tələbi ilə çıxış edir. Məhz bu ziddiyyət danışıqların dalana dirənmiş əsas məqamı hesab olunur.

Diplomatik proses davam etdiyi halda Vaşinqton eyni gündə - 6 fevral 2026-cı ildə İrana qarşı yeni ikinci dərəcəli sanksiyalar haqqında fərman imzaladı. Prezident Donald Trampın təsdiqlədiyi sənədə əsasən, İranla ticarət aparan ölkələrə əlavə tarif və iqtisadi məhdudiyyətlər tətbiq edilə bilər. Bu addım Tehranda danışıqlara paralel təzyiq siyasəti kimi qiymətləndirildi.




Hərbi müstəvidə isə vəziyyət daha gərgindir. ABŞ Hərbi Dəniz Qüvvələri Fars körfəzinə əlavə qüvvələr göndərib. Regionda ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) rəhbər strukturlarında xidmət edən admiral Bred Kuper danışıqlar prosesinə də qatılıb ki, bu fakt diplomatiyanın arxasında real hərbi planlaşdırmanın getdiyini göstərir.

İsrail amili də prosesin əsas determinantlarından biridir. İsrailin baş naziri Benyamin Netanyahu Vaşinqtona səfərindən sonra ABŞ-ın İran məsələsində sərt mövqeyini dəstəklədiyini açıq şəkildə bəyan edib. Təl-Əviv hesab edir ki, İranın nüvə potensialı regionda strateji balansı dəyişə bilər, bu səbəbdən hərbi variant gündəmdən çıxarılmamalıdır. Ekspertlərin fikrincə, ABŞ və İsrailin mümkün "məhdud zərbə" ssenarisi belə genişmiqyaslı müharibəyə səbəb ola bilər. İran rəhbərliyi açıq-aşkar bəyan edib ki, ölkə ərazisinə istənilən hücum "kütləvi cavabla" qarşılanacaq. Tehran xüsusilə Fars körfəzində yerləşən ABŞ hərbi bazalarını və enerji infrastrukturlarını potensial hədəf kimi göstərir.

Ən böyük risk isə enerji təhlükəsizliyi ilə bağlıdır. Dünyada dəniz yoluyla daşınan neftin təxminən 20 faizi Hörmüz boğazından keçir. İranın bu marşrutu bağlamaq ehtimalı qlobal enerji qiymətlərində kəskin sıçrayış yarada bilər. Bu səbəbdən Səudiyyə Ərəbistanı, Qətər və Birləşmiş Ərəb Əmirlikləri kimi regional aktorlar Vaşinqtonu diplomatik həllə sövq etməyə çalışır.

Maraqlıdır ki, ABŞ-İran dialoqu 2025-ci ilin iyununda İsrail və ABŞ-ın İran ətrafında hərbi əməliyyatlarından sonra dayandırılmışdı. O vaxta qədər tərəflər 2015-ci il nüvə sazişinin bərpası üzrə beş məsləhətləşmə keçirmişdi. Xatırladaq ki, həmin sazişdən ABŞ məhz Donald Trampın əvvəlki prezidentliyi dövründə - 2018-ci ildə çıxmışdı. Bugünkü reallıq göstərir ki, tərəflər nə tam müharibə istəyir, nə də real kompromisə hazırdır. Politoloqlar bu vəziyyəti "idarə olunan gərginlik" modeli adlandırırlar. Yəni tərəflər qarşıdurmanı müəyyən həddə qədər saxlayaraq həm daxili auditoriyaya güc nümayiş etdirir, həm də strateji mövqelərini qorumağa çalışırlar. Lakin tarix göstərir ki, Yaxın Şərqdə səhv hesablamanın bir addım belə böyük müharibənin başlanmasına kifayət edir. Hazırda region məhz belə bir həssas mərhələdən keçir - diplomatik masanın üzərində sənədlər olsa da, onun kölgəsində silahlar hazır vəziyyətdədir.



***Kəramət QƏNBƏROV,***
***Beynəlxalq hüquq üzrə ekspert***

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Ramazan ayı 6-cı günün duası

**Allahummə la təxzulni fihi li-təərrüzi mə-siyətik. Və la təzribni bisiyati nəqimətik. Və zəhzihni fihi min mucibati səxətik. Bimənnikə və əyadikə ya muntəha rəğbətir-rağibin.**

**Tərcüməsi:**

**İlahi, bu gün sənə qarşı etdiyim günahlara görə məni rüsvay etmə. Məni intiqam taziyanələrinlə vurma. Bu gün sənin qəzəbinə səbəb olan işlərdən məni uzaq et. Bəxşiş və nemətlərinə and verirəm, ey şövqlü şəxslərin arzusunun müntəhası!**

# Baharın ilk nəfəsi

## Su çərşənbəsi: Təbiətin və ruhun təmizlənmə günü...



**İlk çərşənbə haqqında nə bilirik?**

*Yeganə BAYRAMOVA*

Bu gün baharın müjdəçisi olan ilk çərşənbə - Su çərşənbəsidir. Su çərşənbəsi qışın sərt, səssiz nəfəsini yarıb keçən ilk oyanış sayılır. Xalq arasında "Əzəl çərşənbə", "Gözəl çərşənbə", "Sular Novruzu", "Gül çərşənbə" kimi də tanınır.

Mifik mətnlərdə su həyat, dirilik mənbəyi, xoşbəxtlik gətirən müqəddəs inam obyekti kimi göstərilib. İnanca görə, Tanrı ilk olaraq suyu yaradıb. Buna görə də su ilk çərşənbə kimi qeyd olunur. Su çərşənbəsində suyun müqəddəsliyi ifadə edilir. Bu çərşənbədə su hövzələrində abadlıq işləri görülür, arxlar qaydaya salınır. Bayrama hazırlıqlar su çərşənbəsi ilə başlayır, su ilə bağlı müxtəlif şənliklər keçirilir.

Çərşənbələri həyat üçün önəmli dörd ünsürlə - su, od, yel və torpaqla əlaqələndiriblər. İnanca görə, Novruz çərşənbələrində baharın nəfəsi növbə ilə suyun, ağacların, torpağın canına hoparaq onları oyadır.

Su çərşənbəsində keçirilən mərasimlər

Su həyat mənbəyi, aydınlıq rəmzi sayılır. Bu çərşənbədə su üstündə müxtəlif mərasimlər keçirilir. Türk mifologiyasında suyun müqəddəsliyi ilə bağlı bir çox mətnlər mövcuddur. İnanırlar ki, qorxulu yuxuların suya danışılması ilə insanı izləyən qəzaların dəf olunması mümkündür.

Su çərşənbəsi ərəfəsində, adətən, hər kəs öz ev-eşiyini sahmana salır, divarlar rənglənir, bağ-bağçalarda ağacların, gül kollarının dibi bellənir, qurumuş və artıq zoğlar kəsilir.

Su çərşənbəsi də suya tapınma ilə başlayır. Su üstündən atlanmaq, arzularını, diləklərini suya danışmaq, sübh tezdən evə bulaq suyu gətirmək və başqa ayinlər həmin gün icra olunur. İnanca görə, Novruzun ilk çərşənbəsində su təzələnir. Həmin gün sübh tezdən bulaqdan götürülən su şəfalı hesab edilir. İnanırlar ki, Su çərşənbəsi günü "təzə su" üstündən keçənlər, azarını, bezarını ona verənlər ilboyu xəstəliklərdən uzaq olarlar. Bu inamla həmin gün Günəş doğmamışdan hamı su üstünə gedir, əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyir, su üstündən atlanır, yaralıların yarasına su səpirlər.

Su çərşənbəsində qadınlar, qızlar su fallarına baxırlar. Həmin gecə subay qızlar bir evə yığışırlar. Bu mərasimi icra etmək üçün axar sudan - bulaqdan, yaxud çaydan əvvəlcədən su götürülür. Su şər qarışandan sonra gətirilir. Falda istifadə olunan suya "lal su" deyirlər. Bu suyu gətirməyə bir və ya bir neçə nəfər gedir. Suyu gətirən qabı əlinə götürəndən sonra suyu gətirib evdə su falına baxılacaq qaba tökənədək danışmaq olmaz. Əks halda, həmin su ilə fal açmaq doğru sayılmır. Buna görə də həmin suya "lal su" deyirlər.

Başqa bir fal - üzüklə su falını icra etmək üçün bir fincan, nişan üzüyü və bir saç teli götürülür. Fincanın yarısınadək "lal su" tökülür. Nişanlı qızlardan birinin qızıl üzüyünü falına baxılacaq subay qızlardan biri saçından ayırdığı telə keçirir, içi su ilə dolu qaba salır. Ürəyində niyyət tutub üzüyü fincana yaxınlaşdırır. Üzük fırlanmağa başlayır və fincanın divarlarına dəyir. Üzük hər dəfə fincanın kənarlarına dəydikcə, sayırlar. Say neçə olursa, niyyət tutan subay qıza o yaşda gəlin gedəcəyini bildirirlər.

Su çərşənbəsində icra olunan başqa bir fal isə bəzək əşyaları ilə su falıdır. Bu fal üçün müxtəlif bəzək əşyaları və bir böyük kasa gərəkdir. "Lal su" kasaya tökülür. Falına baxılacaq hər bir subay qız özünün bir bəzək əşyasını - üzüyünü, sırğasını, sancağını və ya qolbağını kasanın içinə atır. Kasanın üstünü kələğayı və ya bir parça ilə örtürlər. Hamıdan böyük olan bir xanım bayatı söyləyə-söyləyə hər dəfə bəzək əşyalarından birini sudan çıxarır. Beləliklə də, bu il gəlin köçəcək qızın kimliyini "müəyyən edirlər".

Su çərşənbəsində hamının həyatında tonqal qalanır. İlk tonqalın su çərşənbəsində yandırılması buzların əriməsinin, qışın sonunun yaxınlaşmasının, sərt soyuqların arxada qalmasının əlamətidir.

Beləliklə, əbəs yerə su çərşənbəsini Novruz çərşənbələrinin gözəli adlandırmayıblar. Bu çərşənbədə yuxuda su görmək, dəryada üzmək, dənizə düşmək, çaydan keçmək, ümmanlarda qərq olmaq aydınlıqdır. Yetər ki, ürəyimiz su kimi saf, niyyətimiz su kimi şəffaf olsun!

# "Nar" uşaq hüquqları sahəsində maarifləndirməni gücləndirir




Sərfəli mobil operator Nar-ın dəstəyi ilə həyata keçirilən "Hüquqlarınla parla!" layihəsinin yekun tədbirləri baş tutub. Layihə uşaq hüquqlarının təşviqi, məktəblilərin hüquqi biliklərinin artırılması və onların analitik düşünmə bacarıqlarının inkişaf etdirilməsi məqsədini daşıyır. Təşəbbüs çərçivəsində təşkil edilən fəaliyyətlərdə Bakı və regionlardan olan məktəblilər, o cümlədən həssas kateqoriyadan olan uşaqlar aktiv iştirak ediblər.

Tədbirin ilk günü "Regional İnkişaf" İctimai Birliyinin ofisində ekspertlərin iştirakı ilə keys müzakirələri keçirilib, iştirakçılar real və simulyativ situasiyalar üzrə həll strategiyalarını təqdim ediblər. Təqdimatlardan sonra səsvermə olub və analitik yanaşma, təklif olunan həll strategiyalarının əsaslandırılması, təqdimat bacarıqları və komanda işi meyarları əsasında ekspertlər tərəfindən ən yaxşı 3 komanda müəyyən edilib. Yekun mərasim isə T. İsmayılov adına 6 saylı məktəb-liseyində baş tutub.Tədbirin davamında təlimlərdə yüksək nəticə göstərən məktəblilər, eləcə də həssas kateqoriyadan olan uşaqlar üçün keçirilən keys müsabiqəsində ekspertlərin səsverməsi ilə seçilən qalib komandalar hədiyyə və diplomlarla, iştirak edən məktəblilər isə sertifikatlarla təltif olunub.

Layihə çərçivəsində indiyədək 2000-dən çox məktəbli, o cümlədən həssas kateqoriyadan olan uşaqlar hüquqi maarifləndirmə tədbirlərinə cəlb olunub. Layihənin nəticəsi olaraq, uşaqlar üçün hüquqi maarifləndirməni daha əlçatan etmək məqsədilə xüsusi mobil tətbiqin hazırlanmasına başlanılıb.

Layihə Azərbaycan Respublikasının Milli Məclisi, İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Sosial Xidmətlər Agentliyi, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası və "Regional İnkişaf" İctimai Birliyinin əməkdaşlığı ilə icra olunub.

Qeyd edək ki, "Nar" artıq 4 ildir ki, "Regional İnkişaf" İctimai Birliyi ilə tərəfdaşlıq çərçivəsində layihəyə davamlı dəstək göstərir. Mobil operator korporativ sosial məsuliyyət strategiyası çərçivəsində uşaq hüquqlarının qorunması, rəqəmsal savadlılığın artırılması və internet təhlükəsizliyinin təşviqini prioritet istiqamətlərdən biri hesab edir. Şirkət kiberbullinqə qarşı mübarizə, şəxsi məlumatların qorunması və uşaqların təhlükəsiz rəqəmsal mühitdə inkişafına yönəlmiş təşəbbüslərə sistemli və uzunmüddətli yanaşma sərgiləyir. "Hüquqlarınla parla!" layihəsi də bu strategiyanın tərkib hissəsi olaraq ictimai-özəl tərəfdaşlığın effektiv modelini nümayiş etdirir.

Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən "Nar" son 6 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında "Nar"ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir eSim texnologiyası təqdim edir.

# Azərbaycanlı məktəblilər beynəlxalq proqramlaşdırma müsabiqəsində 6 medal əldə ediblər



"Azercell"in dəstəyi ilə şagirdlər "Info1Cup" proqramlaşdırma müsabiqəsinə qatılıblar.

Fevralın 7-8-də Rumıniyada 10-cu "Info1Cup" proqramlaşdırma müsabiqəsi keçirilib. 16 ölkədən 189 şagirdin proqramlaşdırma üzrə biliklərini sınadığı beynəlxalq müsabiqəyə Azərbaycan məktəbliləri onlayn formatda qoşulublar. Şagirdlər müsabiqədə yüksək nəticə göstərərək 1 qızıl, 3 gümüş və 2 bürünc olmaqla ümumilikdə 6 medal əldə ediblər.

Bakı şəhəri akademik Zərifə Əliyeva adına liseyin 10-cu sinif şagirdi Fateh Əhmədzadə müsabiqədə qızıl medal qazanıb. Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin 10-cu sinif şagirdi Ömər Əliməmmədzadə, eləcə də Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 10-cu sinif şagirdləri Elay Verdiyev və Əkbər Əhmədov gümüş medala layiq görülüblər. Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin 10-cu sinif şagirdi Atilla Mustafa və Sumqayıt şəhər Təbiət Elmləri Təmayüllü Gimnaziyanın 10-cu sinif şagirdi Mərd Cəfərzadə isə müsabiqəni bürünc medalla başa vurublar.

Qeyd edək ki, 2017-ci ildən etibarən məktəblilərin beynəlxalq fənn olimpiadalarına və proqramlaşdırma müsabiqələrinə hazırlıq prosesi "Azercell Telekom" MMC-nin dəstəyi ilə həyata keçirilir. Bu müddət ərzində ölkənin müxtəlif bölgə və paytaxt məktəblərini təmsil edən şagirdlər müxtəlif yaş qrupları üzrə beynəlxalq proqramlaşdırma yarışlarında ümumilikdə 114 medal qazanıblar.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4851**
**Sifariş: 266**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova